26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələri günüdür!

N25-26 (1125) 25 iyun - 8 iyul 2020-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

Paytaxtda yeni piyada keçidlərinin tikintisi ilə bağlı aparılan kompleks işlər davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Bakının Xətai rayonu, Neapol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov piyada keçidinin texniki göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verib. Bildirilib ki, yüksək zövq, tam fərqli görkəm, müasir texnologiyalar əsasında inşa olunan bu keçid paytaxtda yeni piyada keçidlərinin tikintisi ilə bağlı aparılan kompleks işlərin tərkib hissəsidir.

Yeni inşa olunan piyada keçidi Heydər Əliyev Parkının yaxınlığında yerləşir. 2000-ci ildə salınan və həmin il açılışında ulu öndər Heydər Əliyevin şəxsən iştirak etdiyi bu park rayon sakinlərinin ən sevimli istirahət məkanıdır.

Qeyd edək ki, bu keçidin inşasına qədər ərazidə piyadalar üçün çox böyük çətinliklər olurdu. Onlar xüsusən günün pik saatlarında yolu keçməkdə problemlə üzləşirdilər. Bundan başqa, piyadaların bu ərazidə yolu keçməsi nəqliyyat vasitələrinin hərəkətinə də mane olurdu. Beləliklə, ərazidə piyadalar təhlükə, avtomobillər isə tıxacla qarşılaşırdılar. Yeni keçidin inşası bütün bu problemləri həll edib.

Son dövrlərdə paytaxtda bu istiqamətdə görülən işlərə nəzər salsaq, bunun şahidi olarıq. Belə ki, 2018-2019-cu illərdə Bakıda və şəhərətrafı yollarda, həmçinin magistrallarda 7 yerüstü və yeraltı piyada keçidi istifadəyə verilib.

Z.Ə.Səmədzadənin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və iqtisad elminin inkişafında xidmətlərinə görə Ziyad Əliabbas oğlu Səmədzadə 1-ci dərəcəli **"Vətənə xidmətə görə"** ordeni ilə təltif edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 iyun 2020-ci il

Prezident İlham Əliyevdən

Ermənistana növbəti diplomatik zərbə

İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. **O, deyib:**

- Azərbaycan Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik. Mətnin 90 faizi artıq razılaşdırılıb. İki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında "Tərəfdaşlıq Prioritetləri" sənədi paraflanıb ki, burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır. Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

İşğala və humanitar fəlakətə baxmayaraq, Azərbaycan sosial-iqtisadi inkişafda böyük nəticələr əldə edib. Son 16 ildə ümumi daxili məhsulumuz 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Ticarətimizin təqribən 50 faizi üzv dövlətlərin payına düşür. On beş ilə yaxındır ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Yaxın zamanda biz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz etməyə başlayacağıq. Ölkəmiz Azərbaycanı Avropa İttifaqı bazarlarına bağlayacaq 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan Cənub Qaz Dəhlizinin tikintisinin təşəbbüskarı olmuş və onu maliyyələşdirmişdir. Cənub Qaz Dəhlizi enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir.

Koronavirus pandemiyasına qarşı görülmüş tədbirlər bizə vəziyyəti nəzarətdə, itkiləri isə minimum səviyyədə saxlamağa imkan verib. Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırıb. Qoşulmama Hərəkatının 120 üzv ölkəsinin yekdil qərarı ilə 2019-cu ildə təşkilata sədr seçilən Azərbaycan bu il mayın 4-də Hərəkatın COVID-19-a həsr edilmiş onlayn formatda Zirvə görüşünü təşkil etmişdir. Biz Avropa İttifaqı və Afrika İttifaqının həmin tədbirə qoşulmalarını yüksək qiymətləndiririk. Ümid edirik ki, bu, Avropa İttifaqı və Qoşulmama Hərəkatı arasında fəal əməkdaşlığın başlanğıcı olacaqdır. Azərbaycan pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırmışdır. Eyni zamanda, ölkəmiz bu günə qədər 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirməyi planlaşdırır.

* * *

Ermənistanın baş naziri Nikol Paşinyan ermənicə replika atıb.

Şarl Mişel: Bizə tərcümə gəlmir, Paşinyan.

Nikol Paşınyanın replikası: Üzr istəyirəm, müdaxilə etməliyəm. Bu yaxınlarda Avropa İnsan Hüquqları Məhkəməsi qərar verib ki, Azərbaycan öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirib. Ermənini yatarkən balta ilə qətlə yetirmiş və Avropa İttifaqına üzv dövlətin məhkəməsi tərəfindən ömürlük həbs cəzasına məhkum edilmiş Azərbaycan vətəndaşı həmin ölkədən ekstradisiya edilməndən sonra cənab Əliyev tərəfindən əfv olunmuşdur. Bu şəxs Azərbaycanda hər kəs tərəfindən qəhrəman kimi vəsf edilir. Dağlıq Qarabağ ermənilərini balta ilə qətlə yetirilməmək üçün özünümüdafiə hüququna malikdir.

Mən üzr istəyirəm, ancaq hesab edirəm ki, Şərq Tərəfdaşlığı platforması zorakılığa təhrik etmək üçün deyildir. Burada tərəfdaşlıq təşviq edilməlidir. Mən Azərbaycan Prezidentini təklif etdiyim konstruktiv məcraya və formu-

laya qayıtmağı dəvət edirəm ki, bu formulaya əsasən Dağlıq Qarabağ münaqişəsinin həlli Dağlıq Qarabağ, Ermənistan və Azərbaycan xalqları üçün məqbul olmalıdır.

* * *

Sonra Prezident İlham Əliyev yenidən söz alaraq çıxış edib:

-Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim.

* * *

Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə özünü ifşa etdi. Bunu açıq-aydın sübut edən bir neçə məqamı diqqətinizə çatdırırıq.

Birincisi, Ermənistan baş naziri tədbirdəki çıxışı zamanı ingilis dilində kağızdan oxuyarkən beynəlxalq aləmdə qəbul olunmuş "Naqornıy Karabagh" sözünü işlədir. Ermənicə çıxışında isə "Artsax" sözünü işlədir.

Bu, bir daha onu göstərir ki, Ermənistanın baş naziri yalnız daxili auditoriyaya hesablanan çıxışlarında beynəlxalq aləmin tanımadığı "Artsax" ifadəsini işlədir. Paşinyanın Sammitdəki çıxışı həm də Ermənistan baş nazirinin "ingilis dili səviyyəsini" göstərdi. O, əvvəlcədən hazırlanan çıxışını kağızdan ingilis dilində oxusa da, sonra fikirlərini bu dildə ifadə edə bilmədi. Çıxış yolu erməni dilində danışmaq idi. Ermənistanın baş naziri çıxışında koronavirusla mübarizə üçün təcili ehtiyacların ödənilməsi və təsirin azaldılması məqsədilə Avropa İttifaqından 92 milyon avro həcmində yardım aldıqlarını da qeyd etdi. Azərbaycan Prezidenti isə çıxışında vurğuladı ki, ölkəmiz pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar könüllü maliyyə yardımı ayırıb. Eyni zamanda, Azərbaycan 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirir. Bu, Azərbaycanla Ermənistan arasında bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də dərin uçurumun mövcudluğunu nümayiş etdirən tutarlı faktdır. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizədə nümunə ölkə adlandırır, Azərbaycanın digər ölkələrə yardımını təqdir edir, Ermənistan isə virusla mübarizə üçün sadəcə pul dilənir.

Paşinyan çıxışında daha bir yalana imza atdı. O, Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdırılmış formada təqdim edərək bu qərarda guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğunu iddia etdi, Ramil Səfərovun Azərbaycana ekstradisiyası və onun ölkəsində qəhrəman kimi qəbul olunmasından narazılığını bildirdi. Amma Paşinyan bilməlidir ki, beynəlxalq səviyyəli məhkəmənin qərarını təhrif etmək yolverilməzdir və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarında da Azərbaycana qarşı hər hansı bir ittiham irəli sürülməyib. Bu məhkəmənin qərarında irqçilik ittihamı əsasında Azərbaycanın hər hansı bir dövlət məsuliyyətinin də olduğu qeyd edilməyib. Qərarda baş vermiş hadisənin fərdi davranış əsasında törədildiyi qeyd olunub. Beləliklə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı əsasında Azərbaycanı irqçilikdə ittiham edən Paşinyan növbəti dəfə özünü yalan və saxtakarlıqda ifşa etdi.

Prezident İlham Əliyev çıxışında erməni terrorçusu Karapetyanla bağlı məsələyə toxundu. Dövlət başçısının haqqında danışdığı hadisə 1983-cü il iyulun 15-də Parisin Orli hava limanında baş vermişdi.

ASALA terror təşkilatının üzvü Varujan Karapetyanın başçılığı altında həyata keçirilən, Türk Hava Yollarının kassası qarşısında törədilən qanlı terror aktında həlak olan 8 nəfərdən 2-si Türkiyə, 4-ü Fransa, 1-i ABŞ, 1-i isə İsveç vətəndaşı idi. Terror zamanı 55 nəfər də yaralanmışdı. Karapetyan istintaqa ifadəsində hadisəni törətdiyini boynuna alaraq, əslində, əsas məqsədin bombanı təyyarənin içində partlatmaq olduğunu etiraf etmişdi. Törətdiyi cinayətə görə Fransa məhkəməsi onu ömürlük həbs etsə də, 2001-ci ildə Karapetyan Ermənistana ekstradisiya olunur. Burada qəhrəman kimi qarşılanan terrorçu Ermənistanın ovaxtkı baş naziri Andranik Marqaryan tərəfindən qəbul edilir, mənzil və işlə təmin olunur. Bu, bir daha onu göstərir ki, qanlı terror törədən insanın Ermənistanda qəhrəmanlaşdırılması adi haldır. Bu, Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini göstərən çoxsaylı faktlardan biridir.

Bütün bunlar bir daha sübut etdi ki, Paşinyan beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan tutarlı faktları qarşısında növbəti dəfə mat vəziyyətinə düşdü və özünü biabır etdi. Bu isə bütün hallarda istənilən bir hökumət başçısı üçün arzuolunan vəziyyət deyil.

Dövlət qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə

Dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə Abasova Adilə Ziyat qızı və Quliyev Tələtüm Əliövsət oğlu 2-ci dərəcəli **"Vətənə xidmətə görə"** ordeni, Fərəcov Fazil Salman oğlu 3-cü dərəcəli **"Vətənə xidmətə görə"** ordeni ilə təltif edilmişlər.

Təbrik edirik!

İqtisadi paket sahibkarlara kreditlər sayəsində dəstəyin nümayiş etdirilməsini nəzərdə tutur

"Azərbaycan hökuməti tərəfindən hazırlanan iqtisadi paket sahibkarlara həm də kreditlər sayəsində dəstəyin nümayiş etdirilməsini nəzərdə tutur. Nəzərə alsaq ki, sahibkarlara dəstək iki formada həyata keçiriləcək. Təsdiq olunmuş paketə əsasən, martın 10-dək pandemiyanın təsir etdiyi sektorlarda çalışan sahibkarların aldıqları kreditlərə 10 faiz subsidiya tətbiq olunacaq".

Bu sözləri Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

"Nəzərə alsaq ki, real sektorda orta kredit faizi 12 faizdir, bəzi hallarda bu 14 faizə çatır. Nəticədə alınan kreditin 14 faizi ilk faizlə alınıbsa, onun 10 faizini dövlət subsidiya edəcək, 4 faizini sahibkar qaytaracaq. Əgər 12 faizlə kredit alınıbsa, onun 10 faizini dövlət subsidiya edir, 2 faizini sahibkar ödəyəcək. Nəticədə bu, sahibkarın kredit xərclərinin azalmasına gətirib çıxaracaq. Söhbət 1 milyard manatlıq kreditə 10 faizlik subsidiyanın verilməsindən gedir. Bu istiqamətə 100 milyon manat vəsait ayrılacaq. Bu da imkan verəcək ki, sahibkarlar kredit öhdəliklərini pandemiya dövründə yerinə yetirməkdə çətinliklərlə rastlaşmasınlar. Sahibkarlara bu istiqamətdə həm də vergi güzəştləri də tətbiq olunur. Bu da birbaşa sahibkarların xərclərini azaltmaq məqsədi daşıyır. Digər tərəfdən sahibkarlara 500 milyon manatlıq güzəştli kredit təklif olunur ki, bunun da 60 faizinə dövlət zəmanət verəcək.

Bu, imkan verəcək ki, pandemiyanın təsir etdiyi sektorda çalışan sahibkarlar həmin güzəştli kreditlərdən birbaşa faydalana bilsinlər. Bu da onlara kredit əldə edərək öz fəaliyyətlərini genişləndirmək imkanı verəcək. İki formada tətbiq edilən kredit güzəştləri sahibkarların dövlət tərəfindən daha yaxından dəstəklənməsi məqsədi daşıyır. Onların kredit resurslarına çıxış imkanları kredit xərclərinin azalmasına xidmət edir. Bu da ondan xəbər verir ki, pandemiya dövründə sahibkarların birbaşa dövlət maliyyəsi ilə yanaşı, onların xərclərinin azaldılması, eyni zamanda, kredit resurslarına çıxış imkanlarının artırılmasını özündə əks etdirən paket icra olunur", - deyə deputat diqqətə çatdırıb.

Ünvanlı yardım və işsizlikdən sığorta ödənişinin müddəti uzadılıb

Koronavirus pandemiyası ilə mübarizə şəraitində aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsi proseduru sadələşdirilib.

Baş Nazir Əli Əsədovun bununla bağlı imzaladığı Qərara əsasən, ölkədə martın 1-dən etibarən xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyin olunma müddəti bitən aztəminatlı ailələrə bu yardımın verilməsi 2020-ci il 1 iyul tarixinədək uzadılır.

Bundan başqa, 2020-ci il 1 aprel tarixindən etibarən işsizlikdən sığorta ödənişinin müddəti bitmiş işsiz şəxslərə minimum məbləğdə işsizlikdən sığorta ödənişi iki ay, peşə hazırlığı prosesində fasilə yaranmış kursların müdavimlərinə təqaüdün ödənişi 2020-ci il 1 iyul tarixinədək olan müddətə davam etdiriləcək.

Birdəfəlik ödəmə vətəndaşların banklar tərəfindən təqdim edilmiş kartlarına köçürüləcək

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planı əsasında ölkəmizdə pandemiya ilə əlaqədar 4,8 milyon vətəndaşı əhatə edən məşğulluğa və sosial rifaha dəstək tədbirləri həyata keçirilib. Bu çərçivədə işsizlərdən və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal çalışan şəxslərdən ibarət aztəminatlılara aprel-may aylarında aylıq 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi proqramı icra olunub. Həmçinin işsizlikdən sığorta ödənişinin müddəti bitmiş işsiz şəxslərə, ünvanlı dövlət sosial yardımının verilmə müddəti bitənlərə, peşə hazırlığı prosesində fasilə yaranmış kursların müdavimlərinə, əlillik müddəti başa çatan əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlara müvafiq ödənişlərin verilməsi müddətinin uzadılması təmin edilib. Azərbaycan dövlətinin pandemiya dövründə öz vətəndaşlarına ardıcıl sosial dəstəyinin davamı olaraq Nazirlər Kabineti 23 iyun 2020-ci il tarixli daha bir Qərar qəbul edib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildiriblər ki, Qərara əsasən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları üzrə 190 manat məbləğində birdəfəlik ödəməni almış şəxslərə eyni məbləğdə ödəmənin verilməsi birdəfəlik şəkildə həyata keçiriləcək. Ödəmə həmin şəxslərin banklar tərəfindən təqdim edilmiş bank kartlarına köçürüləcək.

Xüsusi karantin rejimi tətbiq olunan şəhər və rayonlarda 190 manatlıq birdəfəlik ödəmənin verilməsi qərara alınıb

Baş Nazir Əli Əsədov Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları üzrə 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında Qərar imzalayıb. Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.

Qərara görə, Nazirlər Kabinetinin 2020-ci il 7 aprel tarixli 127 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası"na əsasən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları üzrə 190 manat məbləğində birdəfəlik ödəməni almış şəxslərə müvafiq qaydalara uyğun olaraq təkrar yoxlama keçirildikdən sonra 190 manat məbləğində ödəmənin verilməsi birdəfəlik şəkildə həyata keçiriləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll edəcək.

GÖRKƏMLİ İQTİSADÇI ALİM, BÖYÜK ZİYALI

Hər bir xalqın elmi, mənəvi, intellektual potensialının formalaşması və inkişafında onun ziyalıları, alimləri müstəsna dərəcədə aparıcı rola malik olurlar. Belə ziyalı alimlərdən biri də iqtisad elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Milli Məclisin deputatı, ictimai-siyasi xadim Ziyad Əliabbas oğlu Səmədzadədir. Bu günlərdə görkəmli iqtisadçı alimin 80 yaşı tamam olur.

Akademik Z.Ə.Səmədzadə 1940-cı ilin iyun ayının 25-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1961-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş, 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, 1965-ci ildə namizədlik, 1971-ci ildə - 31 yaşında doktorluq dissertasiyası müdafiə etmiş, 1977-ci ildə isə professor elmi adını almışdır. Görkəmli iqtisadçı alim Ziyad müəllim 1980-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir.

Respublikamızın ictimaiyyəti onu böyük alim və praktik iqtisadçı, bacarıqlı təşkilatçı, qabaqcıl dünya təcrübəsinə və milli reallıqlara əsaslanan, müasir, mütərəqqi iqtisadi ideyaların daşıyıcısı və fəal tədqiqatçısı kimi tanıyır. Onun milli iqtisadiyyatın inkişafı, səmərəliliyi, strukturu, təhlükəsizliyi, təkrar istehsalın sürət və proporsiyaları, məşğulluq, demoqrafik proseslərə həsr olunmuş fundamental tədqiqatları, monoqrafiyaları, iqtisadi proseslərin konkret istiqamətlərinə həsr edilmiş çoxsaylı təhriri məruzələri Azərbaycanda bir sıra istiqamətlər üzrə elmi-iqtisadi məktəbin əsaslarını yaratdı.

Akademik Z.Səmədzadənin elmi tədqiqatları respublikamızın iqtisadi və sosial inkişafı ilə bağlı nəzəri və praktiki problemlərin işlənməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Bir qayda olaraq Ziyad müəllimin elmi araşdırmaları dərin sistemli təhlilə, nəzəri və praktiki məsələlərin vəhdət halında həllinə əsaslanır, problemlərin cəsarətli qoyuluşu və orijinallığı ilə seçilir.

Ötən əsrin 60-cı illərində Z.Səmədzadə əslində keçmiş SSRİ dövründə heç bir alim tərəfindən öyrənilməmiş bir problemi araşdırmağa başlayanda respublikada iqtisadi inkişaf və əmək məhsuldarlığının artım sürəti aşağı idi, əmək ehtiyatlarında qeyri-qənaətbəxş vəziyyət yaranmışdı. Əvvəlcə Respublikada Elmlər Akademiyasının Rəyasət Heyəti və Azərbaycan Dövlət Plan Komitəsi, daha sonra – 1969-cu ildə SSRİ Dövlət Elm və Texnika Komitəsi Z.Səmədzadənin bu problem barədə təşəbbüsünü dəstəklədilər. Onun elmi rəhbərliyi ilə Azərbaycan EA İqtisadiyyat İnstitutunda əmək məhsuldarlığı probleminə dair xalq təsərrüfatının strukturu və təkrar istehsal proporsiyaları ilə sıx qarşılıqlı əlaqədə intensiv tədqiqatlar aparılmağa başlanıldı. Mahiyyətcə respublikada iqtisadiyyat elminin yeni istiqaməti yaranmaqda idi. Z.Səmədzadənin doktorluq dissertasiyası "Əmək məhsuldarlığı və əhalinin məşğulluq strukturu problemləri" mövzusuna həsr edilmişdi. Bu tədqiqat Sovet İttifaqında əmək məhsuldarlığı problemlərinin kompleks halda nəzərdən keçirildiyi ilk sanballı elmi iş idi. Keçmiş İttifaqda və xaricdə görkəmli alim kimi tanınan prof. M.J.Sonin yazırdı ki, bu problemləri küll halında, nəzəri cəhətdən birinci olaraq Z.Səmədzadə təhlil etmişdir.

Z.Səmədzadə ilk dəfə olaraq respublika sənayesini səciyyələndirən materiallar əsasında əməyin səmərəliliyi göstəricilərini xalis məhsula görə hesablamış və konkret elmi nəticələr almışdı. Çox böyük həcmdə statistik informasiya və sənayenin, demək olar ki, bütün sahələrinin, konkret müəssisələrin məlumatları əsasında, gərgin zəhmət bahasına görülmüş bu iş İttifaq alimləri, Respublika Dövlət Plan Komitəsi tərəfindən yüksək qiymətləndirilmişdi. Perspektiv araşdırmalar, sənayenin inkişafında yeni meyillər axtarışı, elmi fəaliyyət üçün yeni ideyalar irəli sürən konsepsiyaların yaradıcı şəkildə araşdırılması, tənqidi mövqedən təhlil edilməsi və məsələyə qeyri-standart yanaşılması alimə imkan verdi ki, maddi istehsal sahəsinin hüdudları, cəmiyyətin tərəqqisində qeyri-istehsal sahələrinin ikinci dərəcəli rol oynaması barədə şüurlarda kök salmış təsəvvürlərdən imtina etməyin zəruri olması haqqında orijinal nəticələr əldə etsin. Z.Səmədzadə hələ 50 il bundan əvvəl qeyri-istehsal sahəsinin strukturunun yaxşılaşdırılmasını qanunauyğun bir hal və respublikanın tərəqqisi amili hesab edirdi. Bütövlükdə Azərbaycanın xalq təsərrüfatında əmək məhsuldarlığının dinamika və səviyyəsi, onun əsas amillərinin sistemli təhlili, iqtisadiyyatda struktur irəliləyişləri ilə qarşılıqlı əlaqənin dərin təhlili, iqtisadi tərəqqi faktorları barədə dolğun elmi konsepsiyanın formalaşması məsələləri də Z.Səmədzadənin fəaliyyəti ilə bağlıdır.

Alimin əhalinin məşğulluq strukturu və iqtisadi inkişaf problemlərinə dair orijinal araşdırmalarında professor M.M.Allahverdiyevin böyük rol oynaması demoqrafiya və əmək ehtiyatları elmi məktəbinin inkişafına kömək etmiş, yeni tədqiqat istiqamətlərinin, o cümlədən iqtisadi tərəqqi ilə məşğulluğun strukturu, əmək ehtiyatlarının sahə və ərazi proporsiyaları, urbanizasiya, aqrar sektorda əmək məhsuldarlığı problemləri arasında qarşılıqlı əlaqələrin tədqiq edilməsi zərurətini əsaslandırmışdır. Bütün bu mürəkkəb aspektli problemlər üzrə alimin əldə etdiyi cəsarətli və orijinal nəticələr yüksək elmi təfəkkürə, zəngin faktiki materiala, elmi analiz üçün əslində əlçatmaz olan bütün müttəfiq respublikaların milli gəlir, əmək resursları balansının müqayisəli təhlilinə əsaslanırdı. Alim mərkəzi iqtisadi orqanların diqqətini ona cəlb edirdi ki, respublikada iqtisadi vəziyyətin qiymətləndirilməsi reallıqdan uzaq olduğu kimi, milli gəlirin artımına təsir edən intensiv və ekstentiv amillər barədə də həmin orqanların mövqeyi yanlışdır.

1973-cü ildə Ziyad müəllimin, zənnimizcə, bu gün də əməli və elmi əhəmiyyətini azaltmayan «xidməti istifadə üçün» qrifi ilə «Əmək məhsuldarlığı və iqtisadi inkişafın xalq təsərrüfatı proporsiyalarının aktual problemləri» və «Əmək məhsuldarlığı və iqtisadi inkişafın proporsiyalarının regional problemləri» adlı iki təhruri məruzəsi çapdan çıxdı. Bu təhruri məruzələrində müəllif Azərbaycanda iqtisadi inkişafın mövcud vəziyyətini sistemli təhlil etmək və dəyərləndirməklə perspektiv dövrə tətbiqən onun inkişaf strategiyasının prioritetlərini, xalq təsərrüfatı proporsiyalarının optimallığını və bütünlükdə, sosial-iqtisadi inkişafın prioritetlərinin konseptual əsaslarını müəyyənləşdirmişdir.

Ziyad müəllim həmin illərdə zəngin konkret materiallar əsasında keçmiş SSRİ-nin müttəfiq respublikalarında adambaşına düşən milli gəlirin səviyyəsini, onun artım sürətini İttifaq səviyyəsi ilə qarşılıqlı əlaqədə və müqayisədə təhlil edərək, yaxın gələcək üçün respublikamızda iqtisadi inkişafın təmin edilməsinin başlıca əməli problemlərinin həllinin imkan və yollarını müəyyənləşdirərək, elmi və əməli cəhətdən əsaslandırdı.

XX əsrin 70-ci illərində keçmiş SSRİ məkanında elmi-texniki tərəqqinin sürətləndirilməsi əsasında iqtisadiyyatın inkişaf etdirilməsi mühüm bir vəzifə kimi qarşıya qoyuldu. Bu dövrdə Ziyad müəllimin rəhbərliyi və müəllifliyi ilə 1972-ci ildə «Elmi-texniki tərəqqi və ictimai istehsalın səmərəliliyi» adlı (birgə yazılmış) kitab çapdan çıxdı. Bu kitabda Azərbaycanda iqtisadi inkişafın intensiv inkişafı zərurəti əsaslandırılmaqla yanaşı, xüsusi vurğulandı ki, hər bir respublika, o cümlədən Azərbaycan fərqli təbii, əmək və material ehtiyatları balansına malik olur. Belə bir şəraitdə xalq təsərrüfatının mövcud strukturundan asılı olaraq, fərqli intensiv inkişaf tipinə əsaslanmaqla, o, milli iqtisadiyyatın perspektiv baxımından dinamik, səmərəli və tarazlı inkişafına səbəb olmalıdır. Ona görə də Ziyad müəllim müttəfiq respublikalarda səmərəlilik göstəricilərini dəyərləndirərkən hökmən fond, material və əmək tutumunun «son həddə» artım göstəricilərindən qarşılıqlı əlaqə və asılılıqda istifadə olunmasını zəruri hesab edirdi. Bu metodoloji yanaşma XX əsrin 90-cı illərində bir çox MDB ölkələrində geniş istifadə olunmağa başlandı.

Ümumən, Ziyad müəllim 1970-1974-cü illərdə apardığı elmi tədqiqatlara görə SSRİ və respublika səviyyəsində mükafatlara layiq görülmüşdür. 1975-ci ildə Moskvada nəşr edilən **«Дерзновенная молодость»** kitabında dünya miqyaslı məşhur SSRİ alimləri - akademik E.Velixov və M.Petrovla yanaşı, Ziyad müəllimin apardığı tədqiqatların əhəmiyyəti və aktuallığı haqqında böyük bir yazı da dərc olunmuşdur.

Həmin illərdə Ziyad müəllimin rəhbəri olduğu AMEA İqtisadiyyat İnstitutunun «Xalq təsərrüfatının inkişaf sürəti və proporsiyalar» şöbəsi SSRİ Elm və Texnika Komitəsinin maliyyələşdirməsi əsasında SSRİ EA-nın İqtisadiyyat İnstitutu, SSRİ Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat İnstitutu və Gürcüstan SSRİ EA-nın Iqtisadiyyat İnstitutu ilə birgə «Milli gəlirin təkrar istehsalı» mövzusu üzrə çox ciddi tədqiqatlar aparmışlar.

Akademik Səmədzadə elmi tədqiqatlarında daim uzaqgörənliklə belə bir prinsipial müddəanı əsas götürürdü ki, ölkəmizin malik olduğu resurslar balansı, ondan istifadə dərəcəsi, elmi-texniki tərəqqinin mövcud inkişafı səviyyəsində yaxın perspektivdə hərəkətə gətirilə bilən potensial nəzərə alınaraq Azərbaycanın iqtisadi inkişaf strategiyasının müəyyənləşdirilməsinə belə yanaşma bu gün də aktualdır.

Doğrudur, ötən əsrin 70-ci illərində Azərbaycanda həyata keçirilən tədbirlər nəticəsində sonradan iqtisadi inkişafın artım sürəti İttifaq səviyyəsindən xeyli yüksək olmuşdur. Bununla yanaşı, bu illərdə iqtisadiyyatın strukturunda baş verən dəyişikliklər daha çox iqtisadi artımın kəmiyyətcə sürətinin təmin olunmasına istiqamətlənmişdi. Belə bir şəraitdə iqtisadiyyatın strukturunda baş verən dəyişikliklərin bütünlükdə ictimai istehsalın səmərəliliyinin artırılması baxımından araşdırılması müstəsna əhəmiyyət kəsb edirdi.

Onun «İctimai istehsalın quruluşu və səmərəliliyi" (rus dilində) adlı monoqrafiyası xüsusi qeyd olunmalıdır. Ziyad müəllim ötən əsrin 70-80-ci illərində milli gəlirin yığım və istehlak fonduna bölgü nisbətlərini və onların hər birinin daxili quruluşunu konkret təhlil edərək belə bir qənaətə gəlirdi ki, istehlak və yığım fondunun ilk baxışdan qənaətbəxş görünən nisbətləri bir çox hallarda respublikamızın əsaslı iqtisadi maraq və mənafeləri baxımından əslində o dərəcədə də əlverişli deyildir. Ümumiyyətlə, Ziyad müəllimin 1970-1990-cı illərdə apardığı tədqiqat işlərini qiymətləndirməyə cəhd etsək qeyd etməliyik ki, o, respublikamızın həmin illərdəki mövcud sosial-iqtisadi inkişafını sadəcə olaraq amillər üzrə təhlil etmir, eyni zamanda, dünyada baş verən mütərəqqi meyillərlə yanaşı, Azərbaycan reallığını da nəzərə alaraq, keçmiş SSRİ daxilində ölkəmizin konkret sosial-iqtisadi inkişafının konseptual əsaslarını formalaşdırmışdır.

Bu baxımdan onun 1988-ci ildə çapdan çıxmış **«Azərbaycan SSR-in iqtisadi müstəqilliyi və onun təsərrüfat hesabına və özünü maliyyələşdirməyə keçməsi haqqında»**, **«Azərbaycan SSR-in iqtisadi müstəqilliyi haqqında»** fundamental məqalələrində və Azərbaycanın iqtisadi müstəqillik konsepsiyası barədə Azərbaycan SSR-in Ali Sovetinin sessiyasında (1989-cu ildə) məruzəsində irəli sürülən problemlər və onların konkret həlli yolları işdə göstərilir.

Akademik Ziyad Səmədzadə 1990-2000-ci illərdə dünya təcrübəsini və milli reallıqları nəzərə alaraq, çox zəngin konkret materiallar əsasında sistemli tədqiqat işləri apararaq, ölkəmizdə iqtisadi artımı təmin edən potensialı, amil və imkanları, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinin prioritetlərini, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin səviyyəsini elmi-metodoloji cəhətdən əsaslandırmışdır. Bununla yanaşı, onun **«Ümumbəşəri problemlər və Azərbaycan»**, **«Azərbaycan iqtisadiyyatı XX əsrdə: inkişaf mərhələləri, problemlər»** **«XXI əsrin birinci onilliyində iqtisadi inkişafın konsepsiyaları haqqında düşüncələr»** adlı məqalələri Azərbaycanın iqtisad elmində mühüm bir hadisə kimi qiymətləndirilməlidir. Ziyad müəllim belə hesab edir ki, XX əsrin son qərinəsində Azərbaycan iqtisadiyyatında iqtisadi artımın təmin edilməsinin dəyərləndirilməsi və köhnə iqtisadi sistem daxilində reallaşdırılması mümkün olmayan potensialı yenidən qiymətləndirmək, müstəqillik illərindəki iqtisadi inkişaf konsepsiyasının işlənib hazırlanmasını obyektiv zərurətə çevirdi.

Alimin fikrincə, XXI əsrin astanasında iqtisadi inkişaf məsələlərinə yeni baxışların formalaşması istiqamətində də böyük işlər görülməlidir. Bu gün elə bir vəziyyət yaranmışdır ki, heç bir dövlət düzgün iqtisadi siyasət yeritmədən sabit inkişaf edə bilməz. Ona görə də bu sahədəki boşluqları doldurmaq, prioritet istiqamətləri indidən müəyyən etmək bizə nisbətən ucuz başa gələ bilər və ağrılı nəticələri xeyli yumşaldar.

Akademik Z.Səmədzadə «XXI əsrin birinci onilliyində iqtisadi inkişafın konsepsiyaları haqqında düşüncələr» adlı məqaləsində elmi uzaqgörənliklə yazırdı: «XXI əsr cəmiyyətin inkişafında insan amilinin rolunun müqayisəedilməz dərəcədə artması ilə xarakterizə ediləcəkdir. İntellektual potensiala, intellektual mülkiyyətə tələb əhəmiyyətli dərəcədə artacaq, informasiya sahəsində XX əsrin ikinci yarısında baş verən inqilabi dəyişikliklər daha da dərinləşəcək, informasiya bir çox dövlətlərin, sözün əsl mənasında, strateji resursuna çevriləcəkdir. Elm, elmi-texniki potensialdan istifadənin sərhədləri xeyli geniş-

lənəcək, dünyada gedən informasiya prosesləri kontekstində elmi-texniki əməkdaşlıq sosial-iqtisadi tərəqqinin mühüm amili kimi çıxış edəcəkdir.»

Ziyad müəllimin **«Ümumbəşəri problemlər və Azərbaycan iqtisadiyyatı XX əsrdə: inkişaf mərhələləri, problemlər»** adlı digər məqaləsində yeni texnologiyaların qlobal istehsal proseslərində iştirakı, rəqabət şəraiti, ixrac qiymətləri və ixracdan əldə olunan gəlir, insan kapitalının beynəlxalq axını istiqaməti, habelə davamlı iqtisadi artımın və rəqabət qabiliyyətinin uzunmüddətli nəticələri nəzərə alınaraq davamlı inkişafın maddi bazasının yaradılması, təbii resurslardan səmərəsiz istifadə ilə bağlı neqativ meyilləri aradan qaldırmaq üçün onun mümkün ola bilən təkrar istehsalının və alternativ resurslardan istifadə imkanlarının iqtisadi cəhətdən əsaslandırılması zərurəti xüsusi qeyd olunur.

Akademik Z.Səmədzadə həmkarları ilə birlikdə bütövlükdə SSRİ və digər müttəfiq respublikalar üzrə külli miqdarda müqayisəli materialların təhlili əsasında belə qənaətə gəlmişdir ki, respublikamızın ərazisində "istehsal olunmuş" və "istehlak olunmuş" milli gəlirin arasında olan əsassız fərqlər daha çox ayrı-ayrı respublikaların iqtisadiyyatının müxtəlif strukturda olmasından və həmin sahələrdə yaradılan məhsul və xidmətlərin qiymətinin formalaşmasındakı qüsurlardan irəli gəlir. Bu isə Azərbaycanda istehlak olunan milli gəlirin daha çox az olmasına səbəb olmuşdur ki, o da əhalinin həyat səviyyəsində, respublikamızda adambaşına düşən nominal və real gəlirlərin az olmasında öz əksini tapmışdır.

Akademik Z.Səmədzadə elmi-metodoloji tədqiqatlarla yanaşı, ölkənin aktual sosial-iqtisadi problemlərinin həllinə yönəlmiş konkret məqsədli inkişaf proqramlarının hazırlanmasında fəal iştirak etmişdir. Belə ki, alimin elmi rəhbərliyi və bilavasitə iştirakı ilə «Demoqrafik inkişaf və əmək ehtiyatlarından istifadə», «Material tutumu», «Enerji tutumu» və digər məqsədli proqramlar hazırlanmışdır.

Akademik Z.Səmədzadənin tədqiqatlarında belə bir xarakterik cəhəti qeyd etmək istərdik ki, ulu öndər Heydər Əliyev və bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən iqtisadi strategiya və onun reallaşma mexanizmləri bu böyük alimin bütün elmi tədqiqatlarının ana xəttini təşkil edir.

İctimaiyyət tərəfindən akademik Z.Səmədzadənin yaradıcılığının şah əsəri kimi qiymətləndirilən, ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş **"Böyük yolun mərhələləri"** (2004-cü il) adlı irihəcmli monoqrafiya (rus dilində) öz elmi tutumu, məntiqi və şərh üslubuna görə müstəsna dərəcədə nəzəri və əməli əhəmiyyətə malikdir. Bu fundamental əsərdə Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri, spesifik cəhətləri, ümumi qanunauyğunluqları dərin və sistemli təhlil edilir, onun perspektiv inkişafının konseptual əsasları tədqiq olunur. Bu kitabda irəli sürülən bir çox müddəaları və gəlinən nəticələri əslində Azərbaycanın iqtisadi inkişaf problemləri üzrə əsl ensiklopedik, fundamental bir əsər kimi dəyərləndirmək olar.

Ziyad müəllimin apardığı elmi tədqiqatlarda Azərbaycan dünya təsərrüfat sisteminin tərkib hissəsi kimi nəzərdən keçirilir. O, Azərbaycan iqtisadiyyatını qlobal, ümumdünya miqyaslı iqtisadi inkişaf kontekstində tədqiq edir. Eyni zamanda, haqlı olaraq o, belə bir qənaətə gəlir ki, qobalaşma və ümumdünya inteqrasiya proseslərinin dərinləşməsi şəraitində gənc, müstəqil dövlətin milli dövlətçilik mənafelərinin, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi çox böyük əhəmiyyət kəsb edir. Bununla bağlı hələ 25 il bundan əvvəl ölkənin milli iqtisadi modelinin formalaşmasında iqtisadi təhlükəsizlik problemlərinin nəzərə alınmasını xüsusi vurğulayırdı.

XXI əsrin 20 ilə yaxın dövrü ərzində Azərbaycanın sosial-iqtisadi inkişaf dinamikası onu deməyə əsas verir ki, müstəqil dövlətimiz özünün inkişaf strategiyasını, məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmiş, davamlı inkişafın tələblərinə uyğun, yaşayış səviyyəsini təmin etməyə imkan verən, özünəməxsus, unikal inkişaf modelini formalaşdırmışdır.

Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Biz neft gəlirlərindən səmərəli istifadə etməklə iqtisadiyyatımızı böyük dərəcədə şaxələndirə bilmişik və Azərbaycanda iqtisadi artım sürəti bunun bariz nümunəsidir. Ona görə də biz beynəlxalq iqtisadi əməkdaşlıq məsələlərinə həmişə öz mövqeyimizdən yanaşırıq." XX əsrin sonunda Azərbaycanın müstəqil dövlətə, eyni vaxtda, onun qloballaşan dünya təsərrüfat sisteminin bir subyektinə çevrilməsi ölkəmizin iqtisadçı alimləri qarşısında qabaqcıl dünya təcrübəsini və milli reallıqları nəzərə alaraq optimal inkişaf modelinin seçilməsini, onun konseptual əsaslarının müəyyənləşdirilməsi ilə bağlı ciddi tədqiqatların aparılmasını obyektiv zərurətə çevirdi. Bu baxımdan Ziyad müəllimin **"Dünya iqtisadiyyatı: Çin iqtisadi möcüzəsi"** (2001-ci il), **"Çin qlobal dünya iqtisadiyyatında"** (2009-cu il), **«Китай в глобальной мировой экономике»** (2010-cu il) monoqrafiyaları çox böyük elmi və əməli əhəmiyyətə malik əsərlər kimi qiymətləndirilməlidir. Xüsusilə vurğulamaq istərdik ki, akademik Səmədzadənin bu tədqiqatları Çində, çoxsaylı Avropa-Asiya ölkələrində, habelə MDB məkanında çox yüksək qiymətləndirilmişdir.

Bu kitablar silsiləsi oxucularda, elmi ictimaiyyətdə, dünya iqtisadiyyatını öyrənmək istəyən tədqiqatçılar arasında çox böyük maraq doğurdu. Bu tədqiqatlar, eyni zamanda, keçid dövrünü adlayan, dünyəvi dövlətə çevrilmiş Azərbaycan iqtisadiyyatının daha modern əsaslarda davamlı inkişafını təmin etmək və möhkəmləndirmək üçün beynəlxalq təcrübədən hərtərəfli faydalanmaq zərurətindən irəli gəlmişdir. Çinin unikal iqtisadi inkişaf modeli haqqında yazılmış bu əsər, eyni zamanda, Azərbaycanla Çin arasında dostluq və qarşılıqlı iqtisadi əlaqələrin inkişafına öz müsbət təsirini bu gün də göstərməkdədir.

Onu da xüsusi vurğulamaq lazımdır ki, Çinin iqtisadi inkişaf modeli, mahiyyəti, perspektivləri və onun ölkəmizdə tətbiqi məsələlərini araşdırarkən müəllif klassik, neoklassik, keynsçilik, yeni keynsçilik elmi istiqamətlərinə uyğun olaraq, ölkəmizdə sosial-iqtisadi proseslərin tənzimlənməsi və onun dinamik inkişafı ilə bağlı imkanları aşkara çıxararaq dəyərləndirmişdir. Tədqiqatdan belə nəticəyə gəlmək olur ki, müasir dövrdə ölkəmizdə iqtisadi inkişafın qlobal meyilləri nəzərə alınaraq, Çinin iqtisadi modelindən istifadə edilməsi məqsədəuyğundur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il noyabr ayının 2-də Bakı Dövlət Universitetinin 90 illik yubileyi mərasimindəki çıxışında ölkəmizin iqtisadiyyatında keçid dövrünün başa çatdığını bəyan etdi. Buna əsaslanaraq 2010-cu ildə akademik Ziyad Səmədzadənin bilavasitə təşkilatçılığı və baş redaktorluğu ilə «Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri» mövzusunda respublika elmi-praktiki konfransının materialları külliyyat halında çap olundu.

Qeyd etmək lazımdır ki, son 16 ildə sosial-iqtisadi inkişafda əldə olunan nailiyyətlər, yaradılmış elmi-texniki və kadr potensialı, habelə bazar münasibətlərinin yetkinlik dərəcəsi ölkəmizə yaxın gələcək üçün iqtisadi inkişaf konsepsiyasının paradiqmasını və prioritetlərini yeni müstəviyə keçirməyə imkan verdi. Bu problemləri əməli cəhətdən həyata keçirmək üçün 2016-cı ildə ölkəmizdə «Milli iqtisadiyyatın perspektivi üzrə Strateji yol xəritəsi» qəbul olundu. Əgər biz həmin konsepsiyanın prinsipial müddəalarını, Azərbaycanda sosial-iqtisadi inkişafın prioritetlərini, o cümlədən milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsi, rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, ölkəmizin dünya iqtisadiyyatına səmərəli qovuşması, qloballaşan dünyada Azərbaycanın milli maraqlarının səmərəli reallaşdırılması və sair problemlərlə bağlı akademik Z.Səmədzadənin tədqiqatlarına diqqət yetirsək, onun bu konsepsiyada irəli sürülən prinsipial müddəalarla necə uzlaşdığını aydın görərik. Akademik Ziyad Səmədzadə bir alim, ictimai-siyasi xadim və vətəndaş kimi çox xoşbəxt insandır. Çünki onun tədqiqatlarında vaxtı ilə irəli sürülən prinsipial müddəalar bu gün Azərbaycanda uğurla reallaşdırılır. Dövlətimiz Ziyad müəllimin elmi, ictimai-siyasi fəaliyyətini həmişə yüksək qiymətləndirmişdir.

Ziyad müəllim əqidəsi möhkəm, mənəviyyatı saf, davranışı sadə, təvəzökar və təmənnasız bir insandır. Ömrünün 80-ci ilinə qədəm qoyan akademik Ziyad müəllim müasir duyum, daha böyük həvəs, enerji ilə bu gün də müstəqil Azərbaycanımızın iqtisadi inkişafına yardımçı ola biləcək ciddi tədqiqatlar üzərində işləyir, faydalı tövsiyələr və proqramlar hazırlayır, səmərəli ictimai fəaliyyət göstərir, ölkəmizdə iqtisadi qanunvericiliyin normativ-hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində əzmlə çalışır. İnanırıq ki, Ziyad müəllimin elmi bilikləri, təcrübəsi, bacarığı, təşkilatçılıq qabiliyyəti və səyləri hələ uzun illər müstəqil Azərbaycanımızın inkişafına xidmət edəcəkdir.

Ə.X.Nuriyev,
AMEA-nın müxbir üzvi,
professor

M.A.Əhmədov,
ADİU-nun "İqtisadiyyatın tənzimlənməsi" kafedrasının müdiri, i.e.d., professor

TANAP-la indiyədək nəql olunan təbii qazın həcmi açıqlanıb

Bu ilin yanvar-may aylarında TANAP ilə Türkiyəyə 1,6 milyard kubmetr təbii qaz nəql olunub.

Energetika Nazirliyindən bildirilib ki, istismara verilməndən iyunun 1-dək TANAP-la Türkiyəyə 5,47 milyard kubmetr qaz nəql edilib.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə nəql edən TANAP boru kəməri Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə qoşulub, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşib. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan və 3500 kilometrlik Cənub Qaz Dəhlizinin birləşdirici halqasını təşkil edən TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düymlük hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düymlük hissəsinin uzunluğu isə 480 kilometrdir. Mərmərə dənizi boyunca isə boru kəmərinin diametri 36 düym təşkil edir. İki fazada icra olunan layihə çərçivəsində boru kəmərinin uzunluğu (19 kilometri Mərmərə dənizindən keçməklə) ümumilikdə 1850 kilometrdir.

TANAP-la Türkiyəyə kommersiya qazının nəqlinə başlanmasının birinci ilində 2 milyard kubmetr qaz tədarük edilib. Ticari əməliyyatların ikinci ili cari il iyunun 30-da bitəcək və həmin tarixə TANAP-la nəql edilən Azərbaycan qazının həcmi 6 milyard kubmetrə çatacaq. Sonrakı dövrdə isə boru kəməri ilə ildə 6 milyard kubmetr qaz nəql olunacaq. Azərbaycan təbii qazını Avropaya nəql edəcək və TANAP-a birləşdirilən TAP kəmərinə sınaq məqsədilə 21,4 milyon kubmetr qaz vurulub.

Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. İlkin mərhələdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq.

"Azəri-Çıraq-Günəşli"dən 538,6 milyon ton neft ixrac olunub

İstismara verilməndən iyunun 1-dək "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarından 537 milyon tondan çox neft (kondensatla birlikdə), 295,2 milyard kubmetr təbii qaz hasil edilib.

Energetika Nazirliyindən bildirilib ki, bu yataqlardan 538,6 milyon ton neft (kondensatla birlikdə), 82,6 milyard kubmetr təbii qaz isə ixrac olunub.

SOCAR bu il 569 min ton neft ixrac edib

Energetika Nazirliyindən bildirilib ki, yanvar-may aylarında ölkədən 12,6 milyon ton neft (kondensatla birlikdə) ixrac olunub. Bu, ötən ilin eyni aylarına nisbətən 468 min ton azdır. Neft-kondensatın 12 milyon tonu konsorsium, 569 min tonu isə SOCAR üzrə ixrac olunub.

İyun ayı üzrə bütün müavinət, təqaüd və kompensasiyalar ödənilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu ay üzrə bütün müavinət, təqaüd və kompensasiyaların ödənişi artıq yekunlaşıb. Həmin sosial təminat növləri üzrə vəsaitlər müvafiq kateqoriyalardan olan şəxslərin hesablarına köçürülüb. Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildiriblər ki, bundan əvvəl - iyunun 15-dək isə cari ayın bütün pensiyalarının ödənişi təmin olunub.

Gələn həftə isə bu ay üzrə ünvanlı dövlət sosial yardımlarının ödənişi nəzərdə tutulub.

AZƏRBAYCAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

Faşizm üzərində Qələbənin qazanılmasında xalqımızın tarixi xidmətləri: faktlar, rəqəmlər və reallıqlar

Ziyad SƏMƏDZADƏ, AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, Milli Məclisin deputatı

İkinci Dünya müharibəsində faşizm üzərində tarixi Qələbənin bu il 75-ci ili tamam oldu. Böyük qanlar və itkilər hesabına qazanılan bu qələbə təbii ki, adi qələbə deyildi. Bu, dünyanın yüzlərlə xalqının, Yer kürəsinin milyonlarla insanının eyni arzularını, eyni məqsədini birləşdirib, onu bəşəri həmrəyliyə çevirən bir amal idi. Bu qələbə irqindən, dinindən, rəngindən asılı olmayaraq, neçə-neçə millət övladının babalarının bugünkü nəvələrə, gələcək nəsillərə yadigar qoyduğu əsl səadət qələbəsi idi.

Azərbaycanlıların şücaəti əsl vətənpərvərlik nümunəsidir

Bu böyük qələbənin əldə olunmasında Azərbaycan xalqının böyük töhfəsi və rolu var. Çünki xalqımız faşizm üzərində qələbənin əldə olunması üçün özünün 600 mindən çox oğul və qızını cəbhəyə yola salmışdı. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, xalqımızın əsl qəhrəmanlıq nümunələrini dünyaya nümayiş etdiriblər. 170 mindən çox azərbaycanlının orden və medallarla təltif edilməsi, 123 nəfərin Sovet İttifaqı Qəhrəmanı adına, 30 nəfərin isə "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülməsi bunun sübutudur. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında, Berlin uğrunda döyüşlərdə yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Amma bu qələbə Azərbaycan xalqına asan başa gəlmədi. Yüz minlərlə həmvətənimiz, oğul və qızlarımız bunun üçün canlarından-qanlarından keçdilər. İkinci Dünya müharibəsində həlak olan 57 milyon insandan 27 milyonu sovet vətəndaşı olmuşdur ki, onlardan da 300 mindən çoxu Azərbaycandan cəbhəyə yola düşən soydaşlarımız idi. Onlar el-obalarının hüdudlarından uzaqlarda mərdliklə, fədakarcasına vuruşaraq, həm də doğma Azərbaycanı faşizmdən mərdliklə qorudular. Biz faşizm üzərində qələbənin 75 illiyində Böyük Vətən müharibəsində, alman faşizminin qarşısını almaq uğrunda gedən döyüşlərdə həyatlarını qurban vermiş Azərbaycan vətəndaşlarının xatirəsini böyük minnətdarlıq hissi ilə yad edirik.

Eyni zamanda, 75 ildən çoxdur ki, Qələbə günü Böyük Vətən müharibəsi cəbhələrində ölüm-dirim savaşından zəfərlə çıxmış döyüşçülər nəslini qırılmaz tellərlə indiki nəslə bağlayır. İllər su kimi axır. Ötüb keçən illər qəlbimizin dərinliklərində minnətdarlıq, məhəbbət dolu sözlərlə qalaq-qalaq kitablara köçürülsə də, bizim nəsillər bəşər tarixinin ən qanlı, ən dəhşətli müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları qarşısında daim borclu qalacaq.

Mən müharibənin dəhşətlərini yaşamış nəslə mənsubam. İndi bizi yaşlı nəsil adlandırırlar. Müharibə yer üzünün bütün uşaqlarına məxsus olan o gözəl, qayğısız, şirin, məsum illəri, o illərin dadını, xoşbəxtliyini bizim nəslin əlindən aldı. Bu itkinin acısı bütün uşaqlıq xatirələrinin tən ortasından gəlib keçir. Ağrısı, göynərtisi hələ də qalır. Bundan sonra da qalacaq. Həmin xatirələrdə ailəmizin, qonşularımızın, elə özümüzün də qeyri-ixtiyari qorxu, həyəcanla dolu həyatı var idi.

Müharibə uşaqları tez böyüyür. Uşaq olsam da, o vaxtları, Qafqaz dağlarının o üzündə qana susamış düşmənlə gedən şiddətli, amansız döyüşləri, böyüklər kimi, aydın və dəqiq təsəvvür edirdim. Təpədən-dırnağa qədər silahlanmış düşmən qarşısında bizim qoşunlar necə dayanacaqlar, geri çəkilməyəcəklər ki?! Bu sualların həyəcanı, nigaranlığı ilə cəbhədən gələn xəbərləri gözləyirdik. Axı, hər birimizin həyatı bundan asılı idi!

Vətənpərvərlik anlayışının yüksək mənasını məhz o vaxtları qonşularımıza, qohumlarımıza, dostlarıma baxaraq, tam aydınlığı ilə başa düşdüm. Onlardan heç biri məğlubiyyət sözünü ağlına belə gətirməzdi. Düşməndən bir qırıq aman gözləyən də yox idi. Qandan-qadadan başqa. Müharibənin dəhşətlərini tam təsəvvürə gətirə bilməyən biz uşaqlar onu bütün çətinlikləri, xüsusən gətirdiyi aclığa görə lənətləyirdik.

Atam Bakı yod-brom zavodunda işləyirdi. O, heç vaxt evdə öz işindən danışmazdı. Ancaq görürdüm ki, o, səhərsəhər işə səliqə ilə ütülənmiş köynəyin altından ağappaq toxunma mayka geyinib gedir, axşam evə qayıdanda isə atamın maykası qonur rəngdə olurdu. Sonralar bildim ki, yodun buxarlanması səbəbindən mayka həmin rəngi alırmış. İndi başa düşürəm ki, həmin şəraitdə işləmək elə özü əsl qəhrəmanlıq imiş. Hər bir azərbaycanlı, təkcə cəbhədə deyil, arxada, öz iş yerində qəhrəman imiş. Balalarının əziyyət çəkdiyini görən anam bizə toxtaqlıq verər, deyərdi:

- Bax, dava qurtarsın, hər şey qaydasına düşəcək, çətin günün ömrü az olar.

Onda hamı bir arzuyla, bir diləklə yaşayırdı. Dava tezliklə, özü də mütləq bizim qələbəmizlə bitsin.

Nəhayət, müharibə qurtardı. Çoxdan gözlədiyimiz o Qələbə günü gəlib çatdı! 75 ildir ki, döyüş meydanlarında həlak olan həmvətənlərimizin xatirələrini əziz tutaraq, bu gün yaşı 90-ı ötmüş, 100-ü haqlamış veteranlarımıza can sağlığı arzulayaraq, Qələbəni bayram edirik.

416-cı milli diviziyanın döyüş yolu Qafqazdan başlanmışdır

Heydər Əliyev Qələbəni bizə qaytardı

Müstəqilliyimizin ilk vaxtlarında hakimiyyətdə olan AXC-Müsavat qaragüruhu Azərbaycan xalqının Böyük Vətən müharibəsində yazdığı bu qəhrəmanlıq salnaməsini silməyə, üzərinə kölgə salmağa cəhd göstərmişdi. Müharibə veteranlarını gözdən salan həmin qaragüruhçu dairələr onların ölkənin ictimai həyatında iştirakına əngəllər yaradır, Qələbə gününə və veteranların sinəsini bəzəyən medallara istehza ilə baxırdılar. Baxmayaraq ki, o illərdə Ermənistanın Azərbaycana hərbi təcavüzü daha geniş miqyas alırdı və qanlı döyüşlərdə müharibə veteranlarının döyüş təcrübəsindən və xüsusən mənəvi yardımından istifadə etmək mümkün idi. Hakimiyyətin öz vətəndaşlarına belə etinasızlığı əhalı yaşlarında olan veteranların mənəvi sarsıntısına gətirib çıxarmışdı. Müharibənin çətin sınaqlarına mərdliklə sinə gərən, od-alovdan çıxan fədakar insanlar dövlətin nəinki diqqət və qayğısından məhrum olmuş, hətta əsassız qınaqlarla, ittihamlarla üzləşmişdilər. 9 Mayın Azərbaycan xalqının bayramı olmaması ilə bağlı aparılan riyakar təbliğat, böyük qəhrəmanlığın üstündən vicdansızcasına xətt çəkmək niyyəti bütün cəmiyyətdə narazılıqla qarşılanırdı.

1993-cü ildə Azərbaycan xalqının istək və tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması bütün sahələrdə yüksəlişə doğru dönüşün əsasını qoyduğu kimi, 9 May - Qələbə Gününə və Böyük Vətən müharibəsi veteranlarına qarşı əvvəlki hakimiyyətin cəmiyyətdə formalaşdırmağa cəhd göstərdiyi ögey münasibəti də birdəfəlik aradan qaldırdı. Ulu öndər faşizm üzərindəki qələbənin və müharibə veteranlarının gözdən salınmasına yönəlmiş siyasətin cinayət olduğunu bildirərək demişdir: «**Tariximizi müəyyən dövrdə bir qüvvələr təhrif edirdi, son illərdə, xüsusən 1991, 1992, 1993-cü illərdə isə başqa cür təhrif etməyə başladılar. Yenə də deyirəm, 1992-ci ildə eşitdik ki, bu qələbə bayramını Azərbaycanda heç yerdə qeyd etmirlər. Mən təəccübləndim. Naxçıvanda biz veteranlarla görüşdük, danışdıq, hazırlıq gördük və bayramı qeyd etdik. Sonra mən araşdırmağa başladım ki, bəs, bunu niyə qeyd etmirlər? Bildirdilər ki, o vaxt hakimiyyətdə olan adamlar deyirdilər ki, bu, Vətən müharibəsi, qələbə deyil. O vaxt mən də ordan-burdan eşidirdim, bəziləri deyirdilər ki, faşistlər gəlib Azərbaycanı tutsaydı, yaxşı olardı. Belə sözlər də danışanlar var idi. Yəni, belə ideoloqlar meydana çıxmışdılar və tarixi təhrif edirdilər. Axı, bundan da böyük cinayət ola bilməz**».

Heydər Əliyevin hakimiyyətə dönüşündən sonra, 1994-cü ildən başlayaraq 9 May - Qələbə Gününün rəsmi dövlət bayramı səviyyəsində qeyd edilməsi, müharibə veteranlarına diqqət və qayğının artırılması, imtiyazların verilməsi, cəmiyyət həyatında aktiv iştirak etmələrinə imkanların yaradılması onların həyat, qurub-yaratmaq enerjisini daha da gücləndirdi. Heydər Əliyev hər il müharibə veteranları ilə görüşər, onların qayğıları ilə maraqlanar, problemlərinin yoluna qoyulması üçün tapşırıq və göstərişlərini verərdi. Məhz ulu öndərin hakimiyyətə qayıdışından sonra ölkəmizin inkişaf yoluna qədəm qoyması nəticəsində müharibə veteranlarına mənzillərin, avtomobillərin verilməsi sosial siyasətin əsas istiqamətlərindən birinə çevrildi. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev müharibə veteranlarını "Xalqımızın qızıl fondu" adlandırırdı.

İlham Əliyev: «Biz veteranlarımızla yalnız fəxr edə bilərik»

Ulu öndərin bu sahədəki siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyev Böyük Vətən müharibəsinin xalqımızın tarixindəki rolunu daim yüksək qiymətləndirir. Bu ilin may ayında Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" jurnalına müsahibə verən Azərbaycan Prezidenti İlham Əliyev bu barədə deyib: «**Biz tarixdə bu əlamətdar günə qayğı ilə yanaşır, döyüş meydanında və arxa cəbhədə qələbəyə töhfə verənlərin xatirəsini ehtiramla yad edir, öz həyatları bahasına dünyanı faşizmdən xilas etmiş zabit və əsgərlərin igidliklərinə hörmətimizi bildiririk». Xatırladım ki, bu jurnal Rusiyada və beynəlxalq səviyyədə rəsmi dövlət qurumları, diplomatlar, siyasi, hərbi ekspertlər, tədqiqatçılar və digər mütəxəssislərdən ibarət geniş auditoriyaya malikdir**».

Faşizm üzərində tarixi Qələbənin ildönümü hər il respublikamızda təntənəli şəkildə qeyd olunur. Prezident İlham Əliyev hər il Qələbə günündə Böyük Vətən müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adını almış Həzi Aslanovun, xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad edir, müharibə veteranları ilə görüşür, onları Qələbə bayramı münasibətilə təbrik edir. Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halını alıb. Azərbaycan Prezidentinin 2020-ci il 24 aprel tarixli Sərəncamı ilə 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500 (min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilib. Dövlət başçısının müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi, xatirəsinin əbədiləşdirilməsi istiqamətində atdığı addımlar, yubiley medallarının təsis edilməsi cəmiyyətdə böyük razılıqla qarşılanır.

Bu il koronavirus pandemiyası səbəbindən Qələbə günündə cənab İlham Əliyevin veteranlarla görüşü keçirilməsə də, onların hər biri daim dövlət başçısının nəzərindədir. Mayın əvvəllərində Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsində Prezident İlham Əliyevin dediyi kimi, biz onların mənəvi ruhu, nikbinliyi, həyatsevərliyi ilə yalnız fəxr edə bilərik: «**Biz öz veteranlarımızı qorumalıyıq. Təəssüf ki, onların sayı ilbəil azalır. Adətən, mayın 9-da mən həmişə veteranlarla görüşürəm, biz söhbət edirik, həlak olanların xatirəsini ehtiramla yad edirik, onların məzarları üzərinə gülçiçək, əklillər qoyuruq. Hər dəfə onlarla ünsiyyətdə olanda, sanki enerji alırsan. Özü də onların çoxunun yaşı 90-ı keçib, hətta 100-ü haqlayanlar da var. Lakin əvvələn, fiziki baxımdan onlar möhkəm olduqlarını nümayiş etdirirlər. Ən başlıcası, onların mənəvi ruhu, nikbinliyi və həyatsevərliyi, əlbəttə, bizi heyrətləndirir, təəccübləndirir və biz onlarla yalnız fəxr edə bilərik**».

Azərbaycanın Qələbəyə töhfəsi təkcə ön cəbhə ilə məhdudlaşmadı

Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. Müharibənin başlandığı ilk gündən Bakı neftçiləri əzmkarlıq göstərərək, gecə-gündüz çalışaraq, cəbhənin və iqtisadiyyatın bütün sahələrini yanacaqla təmin edirdilər. Təkcə bir faktı xüsusi olaraq qeyd etmək yerinə düşər ki, dənizdə, quruda və havada sovet ordusunun üstünlük qazanması və tarixi əhəmiyyətli strateji əməliyyatları məhz Bakı neftçilərinin əvəzsiz xidmətləri sayəsində mümkün olub. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Müharibə illərində Azərbaycan alimləri tərəfindən yüksək oktanlı aviasiya yanacağının kəşf olunması amili də xalqımızın qələbəyə verdiyi əvəzsiz töhfələrdən biridir. Sovet aviasiyası məhz bu yanacağın hazırlanmasından sonra cəbhədə düşmənə ağır zərbələr endirməyə müvəffəq oldu.

Bu mənada Azərbaycan xalqının qələbəyə töhfəsi təkcə ön cəbhə ilə məhdudlaşmayıb. O çətin və ağır günlərdə özlərinin rəşadətli əməyi ilə qəhrəmanlıq nümunələri göstərən Bakı neftçilərinin,

azərbaycanlı alimlərin xatirəsini fundamental tədqiqatlarla, sanballı kitablarla əbədiləşdirmək olduqca vacibdir. Çünki onlar bu haqqı canları, qanları bahasına qazanıblar. Ona görə bir müddət əvvəl son on beş ili əhatə edən bir dövr ərzində çoxlu sayda arxiv materialları topladım. Müharibə illərində çap olunmuş bütün qəzetləri gözdən keçirdim. Qəzetlərdəki materiallarla tanış olduqca bizim neftçilərə, alimlərə onların fədakarlıqlarla dolu əməyinə görə qəlbim qürur hissi ilə döyünürdü. Fəxr edirəm ki, mənim Vətənim - mənim Azərbaycanım o böyük qələbəni qazananların birinci cərgəsində dayanır. Pandemiyadan sonra təqdimatını keçirəcəyimiz "Azərbaycan nefti 1941-1945-ci illərdə" adlı kitab və bu məqalədə istifadə etdiyim zəngin materialları, faktları, rəsmi sənədləri araşdırdıqca, bu millətin övladı olaraq xalqımızın tarixi zəfərlərinin fərəh, qürur hissi ilə yenidən şahidi oldum. Xalqımız tarixin bu çətin, olduqca da sərt sınağı qarşısında mətanətlə durdu, geri çəkilmədi. Əksinə, qorxu bilmədən düşmənin üstünə şığıdı. Ölümü, aclığı, qıtlığı, dözülməz isti, ilik donduran soyuqlu günləri dəf edib, dözümlülük nümayiş etdirdi. Sivilizasiyamızı bu vəbadan xilas etməkdə planetimizin bütün tərəqqipərvər qüvvələri ilə bir sırada dayandı.

Azərbaycan xalqının Böyük Vətən müharibəsində Qələbənin əldə edilməsinə verdiyi töhfələrə dair alimlərimiz Qaraş Mədətov, Əhəd Bağırzadə, İsrafil İsrafilov, Azərbaycan Tarix İnstitutu kifayət qədər ciddi araşdırmalar aparıblar. Bu məqalədə isə əsasən xalqımızın qələbənin qazanılmasına verdiyi iqtisadi töhfələrdən bəhs etmək istəyirəm.

Bakıda müharibənin ilk günündən cəbhəni vaxtlı-vaxtında neft və neft məhsulları ilə təmin etmək üzrə aparılan işlər daha da genişlənirdi. Neftçilər, sözün əsl mənasında, möcüzələr yaradırdı. Nikolay Baybakov Bakı neftçilərinin qəhrəmanlığını belə xarakterizə edirdi: **"Onlar dəbli ayaqqabılarını çıxarıb, kirz çəkmələr geydilər. Bəzəkli şlyapalarını bir qırağa atıb başlarına qulaqlı, ağır papaq keçirdilər... Qadınlar heç bir işdən qorxmurdu. Hətta buruq qazma işlərində də çalışırdılar!"**

Həmin günlərdə Azərbaycan neftçilərinin qarşısında duran ən vacib vəzifələrdən biri də neft hasilatının səviyyəsini qoruyub saxlamaq idi. 1941-ci ildə kəşfiyyat qazma işlərinin həcmi Azərbaycan neft sənayesi tarixində özünün ən yüksək göstəricisinə - 43 min 274 tona çatdırıldı.

Azərbaycan neftçiləri tərəfindən 1941-ci ilə aid illik planın vaxtından əvvəl yerinə yetirilməsi barədə Azərbaycan K(b)P MK və Xalq Komissarları Sovetinin verdiyi 1941-ci il 21 dekabr tarixli raportda deyilirdi: **"Öz işini hərbi dövrün tələblərinə uyğun yenidən quran Sovet Azərbaycanının neftçiləri dekabr ayının 19-da neft və qaz hasilatı üzrə illik planı vaxtından qabaq yerinə yetirmişlər".**

Müharibənin birinci ilində mümkünsüz görünən bir nəticə əldə olundu. 1941-ci ilin yekunlarına görə, Sovet İttifaqı 33 milyon ton neft hasil etdi. Artım tam 6 faiz oldu. Ölkənin baş neft rayonu – Bakı şəhəri rekord göstərici ilə istehsalı 23,5 milyon tona çatdırdı.

Azərbaycanın paytaxtı SSRİ-nin Şərq rayonlarında "İkinci Bakı"nın yaradılmasında olduqca vacib, müstəsna rol oynadı. Azərbaycan neft sənayesinin bütün istehsal-texniki və intellektual potensialı həmin bölgələrdəki yeni yataqların mənimsənilməsinə səfərbər edildi. Ən qısa müddətdə, cəmisi bir neçə həftə ərzində, respublikanın neftçıxarma kadr və texniki-istehsal potensialının həlledici hissəsi, 12 min nəfərdən çox ixtisaslı neftçi kadrı, on min tonlarla neft sənayesi avadanlıqları Bakıdan ölkənin Şərqinə yola salındı. Bu, sözün əsl mənasında, Azərbaycanın neft sənayesinə güclü zərbə idi və uzun müddət respublikamızda neft sənayesinin inkişafına təsir etdi.

Bəli, Böyük Qələbəyə neft Bakısının töhfəsi əvəzsizdir. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksək keyfiyyətli yağların 85-90 faizi Azərbaycanın payına düşdü. Ümummilli lider Heydər Əliyev Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi münasibətilə keçirilən təntənəli gecədəki nitqində bu barədə deyirdi: "Bu Qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri olmuşdur. Həmin dövrdə Sovetlər İttifaqında çıxarılan neftin 70 faizi Azərbaycanda hasil edilirdi. Bu qədər neft Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində istehsal olunurdu. Şübhəsiz, nəticə çıxarmaq çətin deyil ki, əgər Azərbaycan nefti olmasaydı, motorlar müharibəsi, texnika müharibəsi o qədər uğurlu və müvəffəqiyyətli ola bilməzdi... O vaxtlar Azərbaycan alimləri tərəfindən yüksək keyfiyyətli benzin, kerosin və başqa neft məhsulları ixtira olunaraq respublikamızda istehsal edilirdi..."

Ümumilikdə 1941-1945-ci illərdə SSRİ-nin neft sənayesi 110 milyon ton neft hasil etmişdi ki, onun da 75 milyon tonu Azərbaycanın payına düşmüşdü.

Bakının işğalı almanların qarşıya qoyduğu əsas hədəflərdən idi

Faşist Almaniyasının SSRİ-yə hücum planında Bakının tutulması əsas hədəflərdən biri idi. Ölkənin Şərq siyasətində Qafqaza, o cümlədən Azərbaycana xüsusi diqqət yetirilirdi. Rozenberqin başçılığı ilə təşkil edilən Şərq İşləri üzrə Nazirliyin nəzdində olan strukturlardan biri Qafqaz Komissarlığı idi. Hələ 1941-ci il aprelin 29-da yaradılan Oleburq iqtisadi qərargahı tərəfindən təsis edilmiş planda Qafqazın, ələlxüsus Bakının işğalı mərkəzi yer tuturdu. Çünki Hitler və ətrafındakılar yaxşı başa düşürdülər ki, Bakı nefti olmadan müharibədə uğur qazanmağa ümid yoxdur. Bütün dünyaya ağalıq etmək iddiasında olan alman strateqləri və onların müttəfiqləri bircə prinsipə güvənirdilər: "Kim dünyanı idarə etmək istəyirsə, neftə nəzarəti ələ keçirməlidir. Bütün neftə - harada olursa-olsun, harada çıxırsa-çıxsın!"

Qafqazın işğalı üçün tərtib edilmiş planın (Edelveys planının) həyata keçirilməsi faşistlərin "A" qrupu ordusuna həvalə edilmişdi. Həmin planda Qafqaz beş işğal rayonuna bölünməli idi və onlardan biri Azərbaycan ələhiddə rayonu idi. "Ost" planına görə, Bakı 1941-ci il sentyabrın axırına qədər işğal olunmalı idi. Faşistlər Bakını işğal edib, onun neftini alman şirkətlərinin sərəncamına verməli idilər. Onlar, eyni zamanda, Azərbaycandakı iri sənaye müəssisələrinə rəhbərlər də təyin etmişdilər.

Müharibənin əvvəllərində sovet tədqiqatçısı B.Kramer mərkəzi mətbuatda dərc olunan yazısında Birinci Dünya müharibəsi təcrübəsindən çıxış edərək aşağıdakı suallara cavab axtarırdı: - Yeni müharibədə alman strateqlərinin gəldiyi nəticələr nə qədər ciddidir?! Onlar qələbə qazanmaqda nəyə arxayındırlar? Onlar nəyə güvənir?

Bu sözlərdə heç bir şişirtmənin olmadığını bildirən müəllif yazır ki, həqiqətən də, neft Birinci Dünya müharibəsi zamanı Qərb cəbhəsində gedən döyüşlərin sonuna yaxın əsas amil rolunu oynadı. Müharibə gündən-günə daha çox yanacaq "içən" maşınların yarışına çevrildi. Amerikanın köməyi və Britaniyanın yiyələndiyi torpaqlardan axıb gələn neftin sayəsində ingilis, eləcə də fransız qoşunları Birinci Dünya müharibəsində Almaniyaya öldürücü zərbə endirməyi bacardı.

İkinci Dünya müharibəsinin başlanğıcında faşistlər Almaniyanı hərbi strateji xammalla, əsasən də neftlə təmin etməyi bacarmayan Kayzer Vilhelmin səhvlərini təkrar etməyəcəkləri barədə ağızları köpüklənə-köpüklənə danışır, hay-küy qoparırdılar. Herinq dönə-dönə and-aman edirdi ki, Almaniya neft məhsulları ilə bağlı bütün ehtiyaclarını tamamilə ödəməyə qadirdir. Lakin Herinqin bəlağəti xəyallardan həqiqəti ayırmaq bacarığını hələ itirməmiş alman hərbi ekspertlərinin önə çəkdiyi rəqəmlərdə öz təsdiqini tapmırdı. Hərbi ekspertlərin hesablamalarına görə, üzdə olan neft balansı heç də Almaniyanın xeyrinə deyildi. Yeni, uzun çəkən müharibə başladığı halda Almaniyanın 1918-ci ildəki fəlakətin ən başlıca səbəblərindən biri olan kəskin neft çatışmazlığı ilə mütləq üzləşəcəyi qaçılmaz idi. Hesablamalar göstərirdi ki, alman ordusunun yanacağa olan gündəlik tələbatı 65-70 min ton olmuşdu. Bu da bir ay ərzində 2 milyon ton deməkdir.

Ona görə də alman ordusu müharibənin gedişində cənuba doğru hücum planlarını genişləndirərək, artıq Şimali Qafqaza qədər gəlib çıxmışdı. Faşistlər neftə can atırdılar. Oradan isə əl uzatsan, Bakıya çatardı. Bakı isə Sovet İttifaqının neftlə döyünən qəlbi idi. Ətraf isə Hitleri Bakının işğalına inandırmışdı. Buna görə də Hitler üzərində Xəzərin, Bakının konturları olan tortu böyük həvəslə kəsmişdi. Almanlar Qafqazın neft rayonlarını ələ keçirmək uğrunda ən sərt, ən qəti qərarlar verir, qələbə naminə bütün güc və ehtiyatlarını səfərbər edirdilər. Hətta "Edelveys" əməliyyatının ilk mərhələsində bir neçə uğur qazandılar.

Faşistlərin Qafqaza hücumu genişlənəndə Dövlət Müdafiə Komitəsi Bakının neft mədənlərinin partladılmasına qərar vermişdi

Sovet qoşunlarının şiddətli müqavimətinə baxmayaraq, müharibənin gedişində düşmən müəyyən uğurlar qazana bilmiş, vacib iqtisadi rayonları ələ keçirmişdi. Ona görə Bakının başı üzərində daha ciddi təhlükə yaranmışdı. Əsas məsələ isə almanların Bakını alacağı təqdirdə neft mədənlərinin partladılması idi.

1942-ci il iyul ayının 1-də Stalin məşhur həmyerlimiz Nikolay Konstantinoviç Baybakovu yanına çağırıb ona demişdi: **"Siz Qafqaza gedirsiniz və yerli neft mədənlərini minalayırsınız. Əgər Hitlerə bircə ton da olsa, neft saxlasanız, sizi mən özüm güllələyəcəyəm. Yox, əgər Hitler gedib Qafqaza çatmasa, siz neft mədənlərini vaxtından əvvəl partlatmış olsanız, onda biz yenə də sizi güllələyəcəyik".**

Cavan, otuz yaşını təzəcə adlamış nazir müavini özündə güc, cəsarət tapıb, asta səslə deyir: **"Yoldaş Stalin, siz mənə heç seçim yolu saxlamırsınız".**

Bu epizodu yaxşı xatırlayan N.Baybakov sonralar bu barədə yazırdı: **"İ.Stalin gəlib yanımda durdu. Əlini astaca qaldırıb ehmalca öz gicgahına vurdu: - Seçim buradadı, yoldaş Baybakov. Budyonnı ilə uçursunuz. Fikirləşin. Məsələni yerində həll edin".**

O zaman Baybakov mütəxəssisləri yığıb Şimali Qafqazda xüsusi üsulla quyuları dağıtmağa başladı. İlk növbədə, az məhsul verən quyular partladıldı. Sonra isə alman-faşist hücumlarının genişlənmə tempindən asılı olaraq digər quyulara keçdilər. Axırıncı məqamda, yəni faşistlərin Qroznı və Maykopun neft yataqlarına daxil olduğu vaxtda isə oradakı yaxşı neft verən quyular partladıldı…

Sonra N.Baybakovun qrupu təcili olaraq Bakıya yola düşdü. Burada da onun qarşısında duran vəzifə eyni idi: düşmənə bir damla belə neft verməmək! Krasnodar, Qroznı... bəli, dəhşətli, ağır və ağrılı... Ancaq Bakıda hər şey o qədər doğma, o qədər əziz idi ki! Buraların qurulması üçün özü o qədər güc, can qoymuşdu ki! İndisə öz əlləri ilə…

Bəli, Bu gün belə çox az adam bilir ki, ölkənin şah neft damarını o vaxt - müharibənin ağır günlərində öz əlimizlə kəsməyə hazır imişlər. M.Slavkina öz kitabında N.Baybakov haqqında yazır: "Arxiv materialları arasında bizim qəhrəmanın Qroznıdakı, yaxud Krasnodardakı fəaliyyəti ilə bağlı sənədləri axtarırdıq. Axtaran tapar, - deyiblər, biz də tapdıq. Əlimizə keçən çox mötəbər bir sənəd idi.

Dövlət Müdafiə Komitəsinin 14 avqust 1942-ci il tarixli "Bakı neft sənayesi üzrə xüsusi hazırlıq tədbirləri haqqında"kı qərarı. "Tamamilə məxfi" qrifli, yuxarıda isə göy rəngli ştamp: "Məxfilikdən çıxarılıb". Şəxsən İosif Stalin imzalayıb.

Yaranmış hərbi vəziyyətlə əlaqədar olaraq Dövlət Müdafiə Komitəsi qərara alır: SSRİ Daxili İşlər Komissarlığına bir vəzifə olaraq tapşırılsın ki, SSRİ Neft Sənayesi Xalq Komissarlığı ilə birlikdə Bakı neft sənayesi obyektlərinin (quyuların, sisternlərin, rezervuarların, müəssisələrin və avadanlıqların) sıradan çıxarılmasına hazırlıq üzrə xüsusi tədbirlər həyata keçirsin.

SSRİ Daxili İşlər Xalq Komissarının müavini yoldaş Merkulov və Neft Sənayesi xalq komissarının müavini yoldaş Baybakov Bakıya ezam olunsunlar və aşağıdakı tədbirləri həyata keçirsinlər:

a) Hazırlanmış tədbirlərin həyata keçirilməsi üçün hər obyektə üçlükdən – obyektin rəhbəri, partiya təşkilatı rəhbəri və XDİK-nın oper-işçisindən ibarət heyət ayrılsın;

b) Miqdarı əvvəlcədən hesablanmış partlayıcı maddələr lazım gələn vasitələr və alətlərlə birlikdə obyektlərə gətirilsin;

c) Xüsusi tədbirlərin həyata keçirilməsində iştirak etmələri nəzərdə tutulan şəxslərdən hər bir obyektə sutkaboyu növbətçilər qoyulsun;

ç) Merkulov və Baybakov yoldaşlar bütün işləri Azərbaycan rəhbərliyi ilə birlikdə aparsınlar."

Bunlar ağlasığmaz sətirlərdir, ancaq bunların hamısı olmuş həqiqətlərdir. Düşmən isə irəliləyirdi. Bu vaxt DMK yeni, tamamilə məxfi bir qərar qəbul etdi. Öz qərarında DMK elə hesab edirdi ki, sovet qoşunlarının məcburən geri çəkildiyi halda fəaliyyətdə olan neft quyuları fondu, neft mədən təsərrüfatları, neft emalı zavodlarının partladılmasına hazırlıq işləri aparılmalı, sonra da məhv edilməlidir.

Sənədlərdən məlum olur ki, həmin günlərdə feldmarşal Maynşteyn telefonla Hitlerə yalvarır ki, Qafqazdakı alman qoşunlarını onun tabeliyinə keçirsin. O da həmin qoşunla Stalinqrad altında mühasirəyə düşmüş orduya köməklik göstərsin.

"Yox", - deyə fürer cavab verir, - "Bakını tutmaq hər şeydən vacibdir. Əgər Qafqaz neftini almasaq, müharibəni uduzmuşuq!"

Ancaq sonrakı hadisələr göstərdi ki, Hitler tortu kəsməkdə çox tələsibmiş. Bakını tutmaq almanlara nəsib olmadı, üstəlik faşist Almaniyası Bakı neftində boğuldu… Yanacaqsız qalan almanların tank qoşun birləşmələri Qafqaz dağlarının ətəyindəcə dayanmağa məcbur oldular. Bakının neft yataqları isə son anda partladılmaqdan xilas oldu.

1942-ci il, payızın axırına yaxın düşmənin Qafqaz üzərinə hücumu dayandırıldı. Vermaxtın qoşun birləşmələri Qafqaz dağlarını aşıb, neft yataqlarını tutmaq gücündə olmadı. Almaniya neft uğrunda gedən böyük müharibənin ən həlledici mərhələsini uduzdu. Bu, strateji məğlubiyyət idi. Məğlubiyyətin nəticələri isə tez bir zamanda özünü büruzə verdi.

Dövrün siyasi liderlərinin və görkəmli sərkərdələrinin Bakı neftinin Qələbədəki rolu barədə fikirləri

"Neft haqqındakı məsələ həyat məsələsidir. Ona görə ki, neft kimdə çoxdursa, gələcək müharibədə kimin əmr verəcəyi ondan asılıdır. Kimdə neft çoxdursa, dünya sənayesinə və ticarətinə əmr verilməsi də ondan asılıdır. Neft qabaqcıl ölkələrin donanmalarının motorlu mühərriklərə keçməsindən sonra dünya dövlətlərinin istər müharibə zamanı, istərsə də sülh, əmin-amanlıq zamanı üstünlük, hegemonluq uğrunda gedən mübarizəsində həyati məsələyə çevrilir". Bu fikirləri isə Stalin ÜİK (b)P-nin XV qurultayında demişdi.

Ona görə Birinci Dünya müharibəsindən sonra almanların Bakı neftini hədəfə almaları başa düşülən idi. Almaniya Silahlı Qüvvələri Ali komandanlığı yanında kəşfiyyat və əks kəşfiyyat idarəsinin – "Abver"in rəisi, admiral Fridrix Vilhelm Kanaris təsdiq edirdi ki, SSRİ-nin xammal ehtiyatlarını, ilk növbədə, Bakı neftini tez bir zamanda ərzində tutmadan, ələ keçirmədən Qələbə mümkün deyil. Artıq 1941-ci ilin yazında Bakının neft mədənlərinin istismarının təşkili məqsədi ilə almanlar xüsusi idarə - Vestfalen qərargahını yaratmışdılar. 1941-ci il iyul ayının 16-da Hitlerin qərargahında keçirilən müşavirədə qeyd olunmuşdu ki, "Bakı vilayəti... alman konsessiyası olmalıdır".

Herman Herinqin isə hələ müharibə başlamazdan əvvəl SSRİ ərazilərinin nəzərdə tutulan işğalı zamanı iqtisadi talan haqqındakı direktivlərində yazılır: "İşğal edilməli ərazilərdən istifadə olunması işləri, ilk növbədə, ərzaq və neft sahələrindəki təsərrüfatlarda aparılmalıdır. Nə qədər mümkünsə, Almaniya üçün daha çox ərzaq və neft əldə etmək - şirkətin əsas iqtisadi məqsədi belədir. Bunlarla yanaşı, alman sənayesinə işğal olunmuş vilayətlərdən digər məhsullar da çatdırılmalıdır".

Hələ 1942-ci ildə Hitlerin direktivində deyilirdi ki, cənub cəbhəsindəki əməliyyatların əsas hədəfi Qafqaz sıra dağlarını adlayıb səxavətlə sovet ordusunu neftlə qidalandıran Bakını ələ keçirməkdir. Bununla da onlar sovet ordusunu, necə deyərlər, "oksigensiz qoymaq", iflasa uğratmaq ümidində idilər. Lakin qeyd edildiyi kimi, Bakıya hücum planlarının iflasa uğraması ilə almanlar davamlı hücum imkanlarını da itirmiş oldular.

Azərbaycan neftçilərinin əməyi dövrün tanınmış siyasətçiləri, hərbçiləri tərəfindən də yüksək qiymətləndirilirdi. Məsələn, Sovet İttifaqı Marşalı Georgi Jukov xatirələrində yazır: **"Bakı neftçiləri Vətənimizin müdafiəsinə, onun düşmən üzərində Qələbəsinə nə qədər lazımdırsa, o qədər də yanacaq verirdi".**

"Qorxmaz şahinlərin hər bir döyüş zərbəsində, sovet tankçılarının hər bir reydində, alman faşist qüvvələri üzərindəki hər bir qələbədə heç də az olmayan uğur payı Bakı neftçilərinə məxsusdur". Bu fikirlər isə Sovet İttifaqı Marşalı Konstantin Rokossovskinin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mircəfər Bağırova yazdığı məktubda yer alır.

Daha bir Sovet İttifaqı Marşalı F.İ.Tolbuxin yazır: **"Qızıl Ordu qazandığı çoxlu qələbələrinə, hücum edən hissələrə vaxtlı-vaxtında keyfiyyətli yanacaq göndərdiyinə görə Azərbaycan xalqı və cəsur Bakı neftçiləri qarşısında borcludur. Stalinqrad ətrafında, Donda, Donbasda, Dneprin, Dnestrin sahillərində, Belqradda, Budapeştdə, Vyanada Azərbaycan neftçilərini minnətdarlıqla xatırlayan bizim cəbhənin döyüşçüləri neft Bakısının cəsur zəhmətkeşlərini salamlayırlar".**

Təəssüf ki, müharibədən sonra sovet rəhbərliyi Bakının Qələbənin əldə edilməsində tarixi rolunu qiymətləndirmədi. Bakıya "Qəhrəman şəhər" fəxri adı verilmədi. Rusiya alimi və politoloqu A.Sevastyanov bu barədə yazır: "Müharibədən sonrakı illərdə bayramlarda, ildönümlərində sovet rəhbərlərindən kiminsə Qələbədə Bakı neftinin rolu haqqında durub danışmağını heç xatırlamıram. Bakıya "Qəhrəman şəhər" fəxri adı verilmədi. Yada düşmədi, görmədilər, gözə dəymədi, sənəd çatmadı və sair və ilaxır... Mükafatlarla bağlı bunlar bir qayda olaraq baş verir. Axı, həqiqətin gözünə gərək düz baxasan! Azərbaycan nefti olmasaydı, müharibə uduzulacaqdı. SSRİ-nin taleyi 1941-ci və 1942-ci illərin payızında nazik simdən asılı qaldı. Bakı neftçilərinin sayəsində bu nazik sim qırılmadı. Hər beş təyyarədən, tankdan, avtomobildən dördü Bakının neft mədənlərindən çıxarılan neftlə, Bakının neft emalı zavodlarında alınan benzin və solyarka ilə doldurulurdu".

Bakı Sovet İttifaqının həm də mühüm silah istehsalı mərkəzlərindən biri idi

Böyük Vətən müharibəsi ərəfəsində sovet hökuməti ölkənin müdafiə qabiliyyətinin artırılması və möhkəmləndirilməsi üçün geniş plan işləyib həyata keçirməyə başladı. Plana uyğun olaraq müharibənin ilk günlərindən Bakının bütün müəssisələri 12 saatlıq iş gününə keçdi. Respublikanın maşınqayırma müəssisələrinin gücünün 95 faizi hərbi

texnika, silah-sursat istehsalına yönəldi.
Arxiv materialları və həmin dövrün mətbuatında dərc olunmuş məqalələrə əsasən bəzi faktlara diqqət yetirək. Bunlardan biri 1942-ci ilin iyul ayında Bakıda rekord bir müddət ərzində Hərbi Sursat Xalq Komissarlığının "Katyuşa" üçün M-13 mərmiləri istehsal edən 610 saylı yeni zavodunun yaradılmasıdır. Zavod elə bu cür də adlanırdı – Mərmi hazırlayan zavod.
Bu reaktiv mərminin korpusu, detalları, ayrı-ayrı hissələri müharibənin ilk günündən istehsal yönünü dəyişən yerli sənayenin müxtəlif profilli zavodlarında istehsal olunurdu. Azərbaycan K(b)P MK mərmi korpuslarının fasiləsiz istehsalını "L.Şmidt" adına, "S.M.Kirov" adına, "Zaqfederasiya", "Oktyabr inqilabı", "Paris kommunası", 458 nömrəli zavod, "Budyonnı" adına, "Bakinskiy raboçiy", "1 May", "Montin", "Beriya", "Lenin" adına avtomobil təmiri zavoduna, Hüsü Hacıyev adına, Volodarski adına zavoda, Kirov adına "Əzizbəyovneft" zavodunun emalatxanasına, Dmitrov adına "Molotovneft" trestinin emalatxanasına, "Azprosovet"ə tapşırmışdı.
1941-ci ilin sonunda hərbi məhsul istehsal edən zavod sexləri planı 200 faiz yerinə yetirmişdilər. Artıq ilin axırına yaxın Azərbaycanda 130 növdə silah, döyüş sursatı, hərbi ləvazimat, mal-material istehsal olunurdu. 1942-ci ildə Bakıda "doğulmuş" "YAK-3" qırıcıları cəbhəyə uçmağa başladı. Qeyd edək ki, yerli sənaye Xalq Komissarlığının, eləcə də "Azərsənayeşurası"nın xətti ilə Bakıda (Leninqraddan sonra) "Molotov kokteyli" istehsalına başlanmışdı. 1941-ci ilin 8 noyabrında 35 min ədəd yandırıcı butulka və 14 min ehtiyat patron istehsal olunaraq yeşiklərə yığıldı. Müəssisənin istehsal gücü isə sutka ərzində 10 min ədədə çatdırılmışdı.
Aviabombaların istehsalına başlayan gəmi təmiri zavodu planı vaxtından əvvəl ödəyirdi. Avtomobil təmiri zavodunun kollektivi "M-13" minomyotu hissələrini, "PPŞ" avtomatlarını, tank hissələrini istehsal edirdi. Kirovabad (Gəncə) şəhərində isə 12 sənaye müəssisəsi müharibənin tələbləri əsasında yenidən qurulmuşdu və 26 adda hərbi məhsul istehsal edirdi.
Azərbaycanın mühəndis-texniki işçilərinin və alimlərinin səyi nəticəsində Bakının neft emalı müəssisələri cəbhə üçün yüksək oktanlı benzin istehsalını uğurla həyata keçirirdilər. Bununla yanaşı, ordunun təminatı üçün partlayıcı, yandırıcı, zərərverici maddələrin, əl qumbaralarının istehsalı da tələb olunurdu. Bütün bu işlərdə öz dərin elmi biliklərini ortaya qoyan Azərbaycan alimləri tərəfindən tank əleyhinə yandırıcı butulkalar üçün ampulanın tərkibi işlənib hazırlandı və uğurla sınaqdan keçirildi. Yuxarıda adı çəkilən vasitələrin hazırlanmasında neft, kerosin və benzin kimi tezalışan məhsullardan istifadə olunurdu. Yandırıcı maddə kimi xlorlu xromil adlı yeni kimyəvi birləşmə də alimlərimiz tərəfindən kəşf edildi. Kimyaçılar hərbi dövrün tələb etdiyi kimi, ən qısa vaxt ərzində neft sənayesi tullantılarından tüstülü döyüş briketlərinin, yerli xammaldan zəhərli maddəni udan süzgəclərin, tank əleyhinə butulkalar üçün fitillərin, oddan müdafiə rənglərinin alınmasına nail oldular və başqa bu kimi vacib məsələlərə diqqət yetirdilər.

Dənizçilərimiz və dəmiryolçularımız əzmlə çalışırdılar

Müharibə başlayanda Xəzər gəmiçiliyi yük dövriyyəsinə görə SSRİ-də birinci yeri tuturdu. SSRİ-nin bütün dənizləri ilə daşınan yüklərin üçdəbiri Xəzər dənizinin payına düşürdü. Bu, hər şeydən öncə, mədənlərin, neftayırma zavodlarının və pambıq bazalarının dənizə yaxınlığı ilə izah olunurdu. Qafqaza və Orta Asiya bölgələrinə daşınan taxılın, meşə-taxta məmulatlarının Ural və Volqa çayları vasitəsilə Xəzərə çatdırılması da yük dövriyyəsinin yüksək səviyyəsini şərtləndirirdi.
Xəzər dənizinin rolunu və əhəmiyyətini müəyyənləşdirən başlıca yüklər neft və neft məhsulları idi ki, bu da əsasən Bakıdan Həştərxana, oradan da Volqaboyunca yuxarıya, SSRİ-nin müxtəlif rayonlarına daşınırdı. Bakı limanı isə yük emalının yüksək intensivliyinə, eləcə də tutumlu buraxılış qabiliyyətinə görə fərqlənirdi. Artıq 1941-ci ilin iyulundan Bakı limanı vasitəsilə ölkənin qərb rayonlarından köçürülən insanların, zavod və fabrik avadanlıqlarının, taxılın və başqa yüklərin Orta Asiyaya, Qazaxıstana göndərilməsinə başlanmışdı.
Dövlət Müdafiə Komitəsinin sənaye avadanlıqları, qoşun birləşmələri, sərnişin və yüklərin təxliyəsi ilə bağlı qərarının yerinə yetirilməsi Xəzər hövzəsinin bütün dəniz nəqliyyatı işçilərindən qüvvələrini daha da cəmləşdirməyi, səyləri artırmağı, mövcud imkanların səfərbər olunmasını tələb edirdi. Bəzən planda nəzərdə tutulmayan on minlərlə sərnişinin, yüz min tonlarla müxtəlif yüklərin ən qısa müddət ərzində daşınması vacib idi. DMK-nın tapşırığına əməl olunaraq gəmilərin müəyyən hissəsi Hərbi Dəniz Donanmasının sərəncamına verilmişdi.
1941-ci ilin avqustunda bir neçə iri nəqliyyat gəmisi mövcud müqaviləyə əsasən İrana yeridilən sovet qoşunlarının daşınmasında iştirak edirdi. Bu mürəkkəb, çətin bir iş idi. Gəmi heyətləri əvvəllər heç görmədikləri, ağıllarına belə gəlməyən saysız-hesabsız çətinlikləri dəf etməli olurdu. Yaralıların təxliyəsi xüsusilə çətinlik törədirdi.
Eyni zamanda, Xəzərlə hərbi ləvazimatlar, texnika da daşınırdı. Xüsusən yanacaqla doldurulmuş tankerlərdə hərbi yüklərin neft məhsulları ilə qonşuluğu, üstəlik gəmilərə yüklənmiş tanklara da yanacağın doldurulması açıq təhlükə mənbəyi, odla oynamaq idi. Xəzər dənizçiləri məhz belə böyük bir riski, məsuliyyəti gözə alaraq verilən tapşırıqları yerinə yetirirdilər.
Hərbi hissə və birləşmələrin Xəzər dənizi vasitəsilə təcili daşınması 1941-ci ilin iyul ayından həyata keçirilməyə başlandı. Cəbhəyə yollanacaq tank diviziyası Krasnovodskdan dəniz yolu ilə Bakıya çatdırıldı. Daşınmanın təhlükəsizliyi tankları aparan nəqliyyat vasitələrinin keçdiyi yolda 7 gün ərzində dənizdə fasiləsiz keşik çəkən kanoner qayıqlarının sayıqlığı ilə təmin olunurdu.
Donanmanın gəmiləri neft və başqa yükləri daşıyan tankerləri müşayiət edir, öz zonasında hava hücumundan müdafiə tapşırıqlarını yerinə yetirir, sualtı minaları zərərsizləşdirmə əməliyyatlarını həyata keçirir və lazım gələndə desant çıxarmağa belə köməklik göstərirdi.
Donanma Zaqafqaziya Cəbhəsi qoşunları Şimal qrupunun əks hücumlarında mühüm rol oynamış 2 atıcı və savaşçı korpusunu Xəzərin qərb sahillərinə çıxarmışdı. Bundan başqa, Qafqazın müdafiəsi dövründə donanma 11 atıcı briqada, 5 atıcı alay, 1000-dən çox tank və zirehli maşın, 18,5 min at, 8 mindən çox top, 4 min avtomobil və 200 təyyarə daşımışdı.
Cəbhədəki şəraitin dəyişməsi ilə əlaqədar olaraq dəniz daşımalarının xarakteri də dəyişmiş olurdu. Cəbhəyə daha çox neft və neft məhsulları çatdırmağa çalışan "Xəzərtanker"in dənizçiləri müxtəlif vasitələrlə gəmilərin yükgötürmə qabiliyyətini artırmağa çalışırdılar. Məsələn, "Ağamalıoğlu" tankeri hər səfərdə normadan artıq, 700 tona qədər yanacaq götürürdü. 5 reys ərzində gəmi plandan əlavə, 3378 ton neft məhsulları daşımışdı.
Bir çox tanker heyətləri özü getməyən gəmilərin ikiqat, üçqat yedəyə alınmasını gerçəkləşdirdi. Dənizlə daşınan



Böyük Vətən müharibəsi illərində Xəzər dənizi ilə neftin daşınması

səbəbdən dənizçilər öhdələrinə düşən planı yerinə yetirmək üçün əllərindən gələni edirdilər: gəmilərin təmiri, yükləmə və boşaltma müddətlərini qısaldır, gəmilərə normadan artıq yük vurur, yük yerlərinə adamları mindirir, sərnişinləri göyərtədə aparmağa məcbur olurdular.
Hər bir tanker öz göyərtəsinə 4,5-5 min nəfər götürür, onları Xəzərin Şərq sahilinə keçirirdilər. Müharibənin təkcə ilk altı ayı ərzində bu yolla 100 min nəfərdən artıq insan daşınmışdı. SSRİ XKS yanındakı köçürülmə üzrə Şuranın qərarına əsasən, zəhmətkeşlər öz müəssisələri ilə birlikdə Orta Asiyaya evakuasiya edilirdi. Çağırışçı komandalar hərbi təlim keçməkdən ötrü də Xəzərin o tayına aparılırdı. Elmi idarələrin, təhsil müəssisələrinin əməkdaşları, tələbələr də köçürülürdü. Bunlarla bərabər, əksəriyyəti qadın, uşaq və qocalardan ibarət qaçqın-köçkün axını da Şərqə üz tuturdu.
Gəmi heyəti ən xırda imkanlarından belə istifadə edib, dəridən-qabıqdan çıxırdılar ki, göyərtəyə, anbarlara daha çox insan yerləşdirə bilsinlər, sahildə insanları ümidsiz buraxmasınlar. Bütün cəhdlərə baxmayaraq, gəmilər çatışmırdı. İnsanların təxliyəsi üçün bütün motorsuz gəmilərdən, hətta geniş, göyərtəsi 2000 nəfər tutan yedəkçi taxta şalbanlardan belə istifadə olunurdu. İnsanları neft tankerlərində belə daşıyırdılar. Tankerlər qarışıq yüklər aparırdı. Anbarlar neft və neft məhsulları ilə ağzınacan doluydu, göyərtədə isə insan kütləsindən tərpənmək olmurdu.
Adamların tankerlə daşınması olduqca neftin ümumi miqdarının 90 faizindən çoxu Bakı limanından yola salınırdı. Bakı-Həştərxan marşrutu SSRİ baş neft konveyerinin birinci sahəsi idi. Həştərxan reydi, Mahaçqala, Krasnovodsk, Quryev limanları neft məhsullarının boşaltma məntəqələri idi. Müharibə illəri ərzində Xəzər dənizçiləri cəbhəyə 50 milyon ton neft və neft məhsulları, o cümlədən B-74, B-76, B-70 aviabenzinləri, liqroin, solyar, kerosin, dizel yanacağı, avtol, motor nefti, mazut daşıdılar. Bu daşımalar 1942-ci il ərzində 1 milyon 593 min 174 tona çatmışdı.
Düşmən aviasiyasının hücumları və bədbəxt hadisələr nəticəsində 1942-1944-cü illər ərzində Xəzər ticarət donanması 32 nəqliyyat gəmisini itirdi. 100 nəfərə yaxın dənizçi isə döyüş meydanında həlak oldu. SSRİ Hərbi Dəniz Donanması Xalq Komissarının 1942-ci il 8 avqust tarixli qərarı ilə Xəzər Donanması "Döyüşən donanma" elan edildi. O vaxt Zaqafqaziyanı bütün ölkə ilə birləşdirən quru kommunikasiya xətləri artıq kəsilmişdi.
Stalinqrad uğrunda qızğın döyüşlərin getdiyi bir vaxtda Xəzərin kommunikasiya xətləri ilə 434 min 472 nəfər hərbi və mülki şəxs, 96 təyyarə, 791 tank, 346 zirehli maşın, 222 traktor, 173 min 730 baş at, 213 min 257 ton döyüş sursatı və müxtəlif yüklər daşındı. Bu da alman faşist qoşunlarının qarşısına sədd çəkməklə yanaşı, Zaqafqaziya cəbhəsi Şimal qrupunun hücumunda çox həlledici rol oynadı.
Sovet hökuməti xəzərlilərin əmək uğurlarını yüksək qiymətləndirdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 27 aprel tarixli fərmanı ilə Xəzər Donanması Qırmızı Bayraq Ordeni ilə təltif edildi. Rəşadətli əməklərinə görə Xəzər gəmiçiliyinin 1534 işçisi Sovet İttifaqının orden və medalları ilə təltif olunmuşdu.
Təbii ki, bu yerdə Azərbaycan dəmiryolçularının fədakarlığını qeyd etməyə bilmərik. 1941-1945-ci illərdə Zaqafqaziya dəmir yolunun Bakı şöbəsi dəmiryolçuların şücaəti nəticəsində cəbhəyə və xalq təsərrüfatının ehtiyacları üçün 1 milyon 600 min vaqon, o cümlədən 480 min vaqona qədər quru yük və 500 min sistern neft məhsulları göndərmişdi.
Azərbaycan dəmiryolçuları azad olunmuş rayonların dəmiryolçularına da köməklik göstərirdilər. Depo və yol emalatxanalarının kollektivləri bu rayonların stansiyalarına avadanlıq və alətlər göndərmişdilər. Bakı və Biləcəri depolarından Stalinqrad, Tixoretski, Minvod, Qafqaz və başqa stansiyalar üçün 36 adda 1000-dən çox alət, iki kompleks "Bekker" qaldırıcı kranı, şpalları qaldırmaq üçün avadanlıq, üç elektrik mühərriki, dörd çilingər dəzgahı, Kirovabad (Gəncə) deposundan Şimali Qafqaz dəmiryolçularına beş dəst çilingər aləti, 100-dən çox parovoz borusu, on dəst ressor və digər materiallar yola salınmışdı.

Azərbaycanın nəqliyyat imkanları "lend-liz" yükləri üçün əsl "həyat yolu" idi

Faşist Almaniyasına qarşı mübarizədə

SSRİ ilə birgə əməkdaşlığa dair 1941-ci il oktyabrın 1-də bağlanmış üçtərəfli sazişlə, habelə ABŞ-ın "lend-liz" kredit və icarə haqqında qanununun həmin ilin noyabrında SSRİ-yə də şamil edilməsi ilə əlaqədar olaraq, Böyük Britaniya və ABŞ İran körfəzi, habelə İran ərazisindəki dəmir yolları, sonra isə quru və dəniz yolları vasitəsilə müxtəlif təyinatlı yüklər göndərməyə başlamışdılar. Müharibə illərində ABŞ və İngiltərədən, sonralar isə Kanadadan SSRİ-yə 400 min avtomobil, 2,6 mln. ton neft və neft məhsulları, 9,6 min top, 10,8 min tank və 18,7 min təyyarə göndərmişdilər ki, bunlar da Azərbaycan dəmir yolu nəqliyyatı vasitəsilə təyinat yerlərinə çatdırılmışdı. Hərbi yüklərin daşınması üzrə işlərə rəhbərlik edənlərdən biri də azərbaycanlı general-mayor Ə.M.Əzizbəyov idi.
Beləliklə, Azərbaycan "lend-liz" yükləri üçün əsl "həyat yolu"na çevrilmişdi. Yüklər Azərbaycana İran ərazisindən daxil olurdu. Sonra isə bu yüklər dəmir yolu vasitəsilə SSRİ-nin mərkəzi hissələrinə çatdırılırdı. Həmçinin, Xəzər dənizi yolu ilə də yüklər Həştərxana daşınırdı.
Stalinlə ABŞ prezidenti arasındakı razılaşmaya əsasən, amerikalılar İran ərazisindən keçib SSRİ sərhədinə çatan dəmir və şose yolları çəkmişdilər. Bu iş ən qısa müddətdə, 1942-ci ilin iyununa qədər başa çatdırılmışdı. Dəmir yolu lokomotivlərlə, vaqon və stansiyalarla təchiz olunmuşdu. Bu yol İran körfəzindən, bu ölkənin sərhədindən SSRİ-nin cənubuna, Bakıya qədər uzanırdı. Amerikalılar İran körfəzində iki liman da tikmişdilər. Okeanın o tayından göndərilən yüklər bu limanlara boşaldılır, oradan da SSRİ-yə daşınırdı. Limanlar da elə bu məqsədlə tikilmiş və lazımi infrastrukturla təmin olunmuşdu. İran ərazisindən keçən şose və dəmir yolunun inşasında yerli əhali ilə bərabər, ABŞ ordusunun xüsusi batalyonları da iştirak edirdi. Bu marşrutla ilk daşınmalar 1941-ci ilin noyabr ayından başladı. O zaman okeanın o tayından 2.972 ton yük göndərilmişdi.
"Lend-liz" yükləri İran körfəzinin şimal qurtaracağındakı limanlara - Bəsrəyə, Xürrəmşəhrə, Abadana, Bəndər-Şapura gəlirdi. Bu limanlarda avia və avtomobil yığma zavodları da tikilmişdi. Həmin limanlardakı yüklər SSRİ-yə iki yolla - Xəzər su yolu vasitəsilə, bir də Qafqazdan keçən quru yolla daşınırdı. 1942-ci ilin mayında yüklərin göndərilməsi, orta hesabla, ayda 80-90 min ton, 1943-cü ilin ikinci yarısında isə ayda 200 min ton çatdırılan təyyarələr isə Abadana boşaldılır, sovet mütəxəssisləri tərəfindən oradaca yığılır, həmin təyyarələri elə sovet pilotları da sınaqdan keçirirdi. Sonra isə təyyarələr hava yolu ilə Tehrandakı "Kvali-Margi" aerodromuna gətirilir, orada isə sovet hərbçiləri onların qəbulunu həyata keçirirdi. Beləliklə, göründüyü kimi, Azərbaycan arxa cəbhədə yerləşsə də, ABŞ-la SSRİ arasında həyata keçirilən "lend-liz" əməliyyatının uğurla reallaşmasına da layiqli töhfələr verib.

Bakının digər sənaye sahələri daxili tələbatın ödənilməsinə böyük töhfələr verdi

Xalqımızın qələbəyə töhfəsinin təkcə ön cəbhə ilə məhdudlaşmamasından söz açarkən əsasən Bakıda yerləşən yüngül sənaye müəssisələrinin işini də xüsusi qeyd etməliyik. Müharibədən əvvəl Bakı şəhər İcraiyyə Komitəsi yerli sənayeni əhatə edən yeddi müəssisəni özündə birləşdirirdi. Həmin müəssisələr kimya, trikotaj, metal emalı, ağac işləmə, yeyinti və toxuculuq sahələrinə aid məhsul istehsal edirdi.
1941-ci ilin əvvəlində yerli sənaye Bakı şəhər əhalisinin çoxişlənən mallarla təminatı və zəhmətkeşlərə daha yaxşı xidmət sahəsindəki fəaliyyətini genişləndirmiş oldu. Lakin bütün müəssisələr, rayon və sənaye kombinatları Böyük Vətən müharibəsi başlanan ilk günlərdən istehsal yolunu dəyişərək, əsasən müdafiə tipli məhsulların buraxılmasına keçdi. Ordu üçün döyüş sursatı detalları, qoşqu-araba hissələri, hospitallar üçün mebel, yataq dəstləri, hava hücumundan müdafiə sığınacaqlarında quraşdırılan avadanlıq və bir sıra xüsusi ləvazimatlar həmin məhsullara aid idi.
Müəssisələrdə iş profilinin qəfil dəyişmə prosesi, yeni istehsal növlərinin axtarışı, öyrənilməsi və mənimsənilməsi işçi kollektivlərinin gərgin, gücləndirilmiş iş rejimi ilə müşayiət olunurdu. Ordu üçün paltarların tikilməsi və təmiri məqsədilə yerli sənaye müəssisələrinə sistemli şəkildə sifarişlər, tapşırıqlar verilirdi. Belə işlərdə evdə çalışan qadınlar, qızlar, gəlinlər də fəal iştirak edirdi. Onlar verilən tapşırıqları xüsusi ruh yüksəkliyi ilə, canla-başla, yüksək keyfiyyətlə, vaxtlı-vaxtında yerinə yetirirdilər.
Yerli sənaye idarəsinin mebel fabriki işini yenidən qurmaqda xüsusi çətinlik çəkirdi. Müharibədən əvvəl məktəblər üçün mebel, əhalinin çox işlətdiyi müxtəlif növ məhsullar buraxan fabrikə

müharibənin ilk günlərindən hərbi tipli arabaların, qoşquların hazırlanması kimi məsuliyyətli tapşırıqlar verildi.
Metal məmulatları zavodu müdafiə tipli məhsulların hazırlanmasını və buraxılmasını tez bir zamanda mənimsədi. Əsgər ayaqqabıları üçün mallar, ordu dəbilqələri, araba detalları, qoşqu ləvazimatı, yəhərlər, kənd təsərrüfatı inventarı və başqa məhsullar, əsasən, yüksək dəyəri olmayan metalların, digər növ qalıqların bazasında hazırlanırdı.
Müharibəyə qədər əsasən kənardan gətirilən, az tapılan xammalla işləyən kimya zavodu son dərəcə böyük işlərin öhdəsindən gəldi. 1942-ci ildən isə məhsul istehsalında yerli xammal və sənaye tullantılarından istifadəyə başlandı. Müharibə illərində xüsusi məhsullar buraxan yeni sex quruldu. Ətriyyat sexi işə düşdü. Başqa sexlər də iş yönünü dəyişdi.
Hərb illəri ərzində rezin məmulatları fabriki əhəmiyyətli döyüş sursatları, neft sənayesinə gərəkli məhsullar, eləcə də traktor hissələrinin istehsalını mənimsəmiş oldu. SSRİ XKS müharibə şəraitində yerli sənayenin əhəmiyyətini və rolunu yüksək qiymətləndirərək, 1942-ci il 28 avqust tarixli qərarında istehsal planını artıqlaması ilə yerinə yetirdiyinə görə mühəndis-texniki işçilərin əməyini mükafatlandırmaqla tənzimlədi. Zaqafqaziyanın başı üzərində müharibə təhlükəsi olduğu halda Bakı şəhərinin müəssisə, ev-mənzil və idarələrinin təcili surətdə yanğın əleyhinə avadanlıqla təmin olunmasının vacibliyi ilə bağlı kimya zavodu direktorunun təşəbbüsü ilə yanğına qarşı inventar buraxılışı nizama salındı.
Bu məqsədlə tələsik təşkil olunmuş dəmirçi sexində zavod fəhlələrindən ibarət briqada "Qarametaltəchizat"dan alınan dəmir kütləsindən xeyli miqdarda inventar hazırladı. Kimya zavodunun rəng, ayaqqabı mazları üçün xırda qablar düzəldən basma sexi cəbhə üçün silahlarda sellüloid detalların hazırlanmasına keçdi. Kimya zavodu cəbhəni, həmçinin kifayət qədər təkər və çəkmə mazları ilə təchiz etməkdə idi. Zavod hopdurma sexində propitkalar - xüsusi dəridən hazırlanmış üst geyimlər, kombinezonlar, çəkmələr və sair istehsalında da böyük işlər gördü. Sexdə alova qarşı kisələrin də istehsalına başlandı. Zavod on minlərlə belə geyim hazırladı.
Hökumətin tapşırığına əsasən kimya zavodunda ərzaq məhsullarını zəhərləyici maddələrin təsirindən qorumaq üçün xüsusi pasta və duru məhlul da hazırlanıb istehsala buraxıldı. Müəyyən bir dövrdə, Azərbaycanın, eləcə də qonşu respublikaların bir sıra zavodları olduqca vacib bir silahın istehsalını dayandırmaq təhlükəsi ilə qarşılaşdı. Səbəbsə həmin silahın istehsalı zamanı lazım gələn xüsusi lakın yoxluğu idi. Müharibəyə qədər Mərkəzi Rusiyadan gətirilən həmin lakı hazırlamaq üçün Azərbaycanda lazımi xammal tapılmırdı. Texniki rəhbər sutkalarla çalışaraq həmin xammalın əvəzedicisini tapdı. Bundan sonra kimya zavodu həm Azərbaycanın, həm də qonşu respublikaların zavodlarında bu xüsusi laka olan tələbatı tamamilə ödəmiş oldu.
Kimya zavodunun istehsalı olan belə çoxişlənən yeni malların sırasına duru sabun, yuyucu məhlul və buna bənzər məhsullar: diş tozu, üz kremi, vazelin, üz qırxmaq üçün köpüklü şampun, səpməyə qarşı toz və s. məhsullar daxil idi. Yerli Sənaye İdarəsinə məxsus, hələ müharibəyə qədər bağlanmış dulusçuluq sexi də kimya zavodu tərəfindən istismara buraxıldı.
Rezin məmulatlar fabriki 1941-ci ilin sonlarında Rostov-Dondan Bakıya köçürüldü. Köçürülmədən sonra ağır, çətin şəraitdə bərpa olunmasına, ixtisaslı kadrların, avadanlıq çatışmazlığına baxmayaraq, fabrik Bakıda 25 günün içində istismara buraxıldı. 1942-ci ilin əvvəlində fabrikdən neft sənayesinə gərəkli rezin məmulatın istehsalına nail olmaq tələb edildi. Xüsusi çətinliklərə baxmayaraq, həmin istehsal prosesi çox qısa müddətdə mənimsənildi. "Azneftkombinat"ın rezin məmulatlarına olan tələbatı da təmin edilmiş oldu. 1942-ci ilin çətin günlərində, cəbhənin Qafqaza yaxınlaşdığı bir vaxtda fabrik təkcə neft sənayesi üçün deyil, həm də Zaqafqaziya cəbhə komandanlığının sifarişi ilə yandırıcı butulkalar üçün rezin halqaların kütləvi istehsalına başladı.
1943-cü ildə fabrik tərəfindən keyfiyyəti xeyli dərəcədə yüksəldilmiş, istifadə müddəti uzadılmış pambıq qarışıqlı ayaqqabı altı, padoş rezinin istehsalı da mənimsənildi. Metal məmulatları zavodu müharibəyə qədər, əsasən tam dəyərli xammalla işləyərək, çox istifadə olunan mallar və kommunal təsərrüfatı üçün inventarlar, zibil qutuları, xəkəndaz, tas, vedrə, çarpayı, dəmir çəlləklər və sair hazırlayırdı. Müharibənin ilk günlərindən zavodun istehsal səmti dəyişilərək, əsgər dəbilqələrinin, dəmir təbəqədən hazırlanmış qızdırıcıların, kerosin lampaların kütləvi buraxılışına istiqamətləndirildi. Çarpayı sexi çarpayı və tor əvəzinə, maska toru, kirkə, ling, yanğın pilləkəni, kəlbətin istehsal etməyə başladı. Zavodun tökmə sexi isə yanğın əleyhinə armaturların buraxılmasını təşkil etdi.
Ümumilikdə Bakının yerli sənayesi müharibənin gedişində ölkənin sənaye məhsullarına olan tələbatının ödənilməsində tarixi xidmətlər göstərdi.
Digər faktlar da Azərbaycanda xalq təsərrüfatının müharibə illərindəki fədakar əməyindən xəbər verir. Belə ki, müharibə illərində respublikanın müəssisələri 1419 min ədəd şinel, 4227 min dəst yay geyimi, 3097 min alt paltarı, 1977 min cüt çəkmə, 1417 min patron çantası, 1468 min dəst trikotaj istehsal etmişdi. 1941-1945-ci illərdə Azərbaycan xalq təsərrüfatından orduya 5457 yük, 371 minik maşını və 301 digər avtomobil səfərbər edilmişdi.
Azərbaycanın yeyinti sənayesi müəssisələri də hərbi dövrün çətinliklərini dəf edərək verilən planları artıqlaması ilə yerinə yetirirdilər. Bakı tütün fabriki əməkçilərinin fədakar əməyi Azərbaycan hökuməti tərəfindən dəfələrlə qeyd olunmuşdu. Respublika yeyinti sənayesi işçiləri əhalini xüsusən müharibə şəraitində çox vacib olan "C" vitamini ilə təmin edə bilmişdilər. Ət-Süd Sənayesi Komissarlığı müəssisələrində insulin istehsalı altı dəfə artmışdı.
Müharibə illərində Azərbaycan toxuculuq kombinatı iki dəfə birinci yeri və DMK-nın bayrağını qazanmışdı. Volodarski adına tikiş fabriki dörd dəfə birinci yerə, ÜİHİMŞ və SSRİ Yüngül Sənaye Nazirliyinin bayrağına layiq görülmüşdü. Sərrac-yəhər fabriki, dəri-qalantereya fabriki də mükafatlandırılmışdı.
Kənd əməkçiləri də cəbhəyə bacardıqları qədər yardım edirdilər. Onlar təkcə müharibənin əvvəllərində ordunun fonduna öz şəxsi istifadələrində olan 18 min baş mal-qara, 52 min pud taxıl, 170 min pud müxtəlif növ məhsul göndərmişdilər. Şəxsi vəsaitlərdən müdafiə fonduna 15 kiloqram qızıl, 952 kiloqram gümüş, 320 milyon rubl məbləğində vəsait vermişdilər. Cəbhəyə 1,6 milyondan çox zəruri mal və 125 vaqon isti geyim yola salınmışdı. Yalnız Leninqrad üçün 1942-ci ilin yayına qədər Bakı müəssisələri 2 vaqon qara kürü, 40 ton meyvə qurusu, 12 vaqon tomat-püre və digər məhsullar, eləcə də dərman və sarğı materialı yollamışdılar.

Azərbaycan elminin Qələbənin qazanılmasında tarixi xidmətləri

Azərbaycan xalqı öz nefti ilə yanaşı, öz elmi potensialı ilə də Böyük Vətən müharibəsində Qələbənin əldə edilməsinə sanballı töhfələr verib. Azərbaycan alimləri Böyük Vətən müharibəsi illərində "Hər şey cəbhə üçün! Hər şey düşmən üzərində Qələbə naminə!" çağırışına cavab olaraq gecəli-gündüzlü çalışırdılar. Vətənin başının üstünü qara buludlar alanda onlar bacarıq və biliklərini alman işğalçılarının darmadağın edilməsinə yönəldərək, elmi fəaliyyətlərinin xarakterini kökündən dəyişdilər.
Böyük Vətən müharibəsinin səkkizinci ayında biz artıq yeni şəraitdə çalışan alimlərimizin fəaliyyətinin bəzi uğurlu yekunlarından söz açа bilərdik. Fiziklər, kimyaçılar, energetiklər, botaniklər məsuliyyətli, ölkə üçün çox vacib tapşırıqların yerinə yetirilməsi məqsədilə lazım gələn vaxt möhlətini xeyli azaldaraq, xalq təsərrüfatının müxtəlif sahələrinə, respublikanın neft sənayesinə böyük köməklik göstərirdilər. Onların kəşfləri ordumuz tərəfindən əməli işdə, döyüş meydanlarında öz tətbiqini tapırdı.
Hələ müharibədən əvvəl Azərbaycan alimlərinin qarşısında duran ən vacib məsələ ölkənin yüksək keyfiyyətli yanacaq və sürtkü yağları ilə təminatı idi. Bu vəzifə müharibənin ilk dövründə xüsusilə aktuallaşdı. Xüsusən yeni tip döyüş təyyarələrinin böyük sürət yığması üçün yüksək oktanlı benzin istehsal etmək vacib idi.
Həmin ərəfədə görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin başçılığı altında bir qrup alim neft-kimya elmində böyük hadisə olan yüksək oktanlı aviasiya yanacağı əldə etdi. Alimlərin və istehsalçıların birgə işi nəticəsində Bakıda yeni neft-kimya və kimya müəssisələri Y.Məmmədəliyevin ideyası əsasında yüksək oktanlı alkilbenzol və onun tərkib hissəsini istehsal edən yeni zavod fəaliyyətə başladı.
